NOVRUZ BAYRAMINIZ MÜBARƏK!

11/12 (1214) • 17-30 mart 2022-ci il

İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

"BƏRPA OLUNAN ENERJİ NÖVLƏRİNİN İNKİŞAFI BİZİM ÜÇÜN PRİORİTET MƏSƏLƏDİR"



Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti tərəfindən Azərbaycanda inşa ediləcək 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının Gülüstan sarayında təməlqoyma mərasimində deyib.

Dövlətimizin başçısı bildirib:

-Bu gün ölkəmizin energetika sahəsində çox əlamətdar bir gündür. Bu gün Qaradağ Günəş Elektrik Stansiyasının təməli qoyulur. Doğrudan da çox önəmli bir hadisədir, 230 meqavat gücündə olan bu stansiya həm ölkəmizin enerjiyə artan tələbatını ödəyəcək, eyni zamanda, ixrac imkanlarımızı da genişləndirəcək.

Mən çox şadam ki, bu böyük layihənin icraçısı dünyada tanınmış və bu sahədə böyük təcrübəsi olan "Masdar" şirkətidir. Qeyd etdiyim kimi, "Masdar" şirkətinin bu sahədə çox böyük təcrübəsi var, bir çox ölkələrdə uzun illər uğurla fəaliyyət göstərir. Əlbəttə ki, bu şirkətin Azərbaycana sərmayə qoyması çox təqdiredici bir haldır. Bu, bir daha onu göstərir ki, Azərbaycan xarici sərmayə üçün çox cəlbedici ölkədir, açıq ölkədir. Azərbaycanda çox gözəl investisiya iqlimi vardır və eyni zamanda, Azərbaycan xarici tərəfdaşlar qarşısında üzərinə düşən bütün öhdəliklərini yerinə yetirir. Xarici sərmayənin Azərbaycana böyük həcmdə qeyri-neft sektoruna qoyulması bizim əsas prioritetlərimizdən biridir. Çünki uzun illər neft-qaz sahəsinə 10 milyardlarla dollar sərmayə qoyulubdur. Bu, bizə imkan verdi ki, enerji sahəsində istədiyimizə nail olaq. Bu gün Azərbaycan həm xam neft, təbii qaz, neft məhsulları və elektrik enerjisini ixrac edən ölkədir. Bizdə elektrik enerjisinin ixracı nöqteyi-nəzərdən böyük potensial var. Biz dörd qonşu ölkəyə ixracı artıq təmin etmişik və əminəm ki, gələcəkdə digər bazarlara da elektrik enerjisi ilə çıxacağıq. Bunu nəzərə alaraq, hər bir yeni stansiyanın inşa olunması qeyd etdiyim kimi, bizim ixrac imkanlarımızı da artırır.

"Masdar" şirkəti bizim üçün dost ölkəni - Birləşmiş Ərəb Əmirliklərini təmsil edir. Bizim ikitərəfli münasibətlərimiz çox yüksək səviyyədədir. Həm siyasi, həm iqtisadi, həm də digər sahələrdə uğurla əməkdaşlıq edirik. Ticarət əlaqələrimiz artır, turizm sahəsində çox böyük imkanlar var və şadam ki, bu sahədə də artım göz qabağındadır.

Dövlət başçısı qeyd edib ki, bu ilin yanvar ayında bu sahədə məşhur olan, Səudiyyə Ərəbistanını təmsil edən "ACWA Power" şirkəti ilə 240 meqavat gücündə Külək Elektrik Stansiyasının təməli qoyuldu. Fevral ayında "Azərenerji" tərəfindən inşa edilmiş 385 meqavat gücündə elektrik stansiyasının açılışı oldu və bu gün 230 meqavat gücündə günəş elektrik stansiyasının təməli qoyulur. Yəni hələ 3 ay tamamlanmayıb ki, artıq 855 meqavat gücündə yeni generasiya gücləri yaradılır, artıq 385 meqavat gücündə yaradılıbdır. Əminəm ki, 2023-cü ildə əlavə güclər bizim ümumi sistemimizə daxil ediləcəkdir və bu, işin sadəcə olaraq başlanğıc hissəsidir. Əminəm ki, biz yaxın gələcəkdə yeni layihələrin başlanmasına start verəcəyik.

Böyük potensial işğaldan azad edilmiş ərazilərdədir. Artıq dəqiq hesablamalar aparılıb və günəş, külək enerji növlərinin istehsalı təxminən 9-10 min meqavata çata bilər. Artıq ilkin addımlar da atılır, bp şirkəti ilə generasiya gücü 200 meqavatdan çox olan günəş elektrik stansiyasının inşası ilə bağlı danışıqlar gedir. Ümid edirəm ki, bu danışıqlar da uğurla nəticələnəcək. Digər böyük şirkətlər bu bölgəyə maraq göstərirlər. Bildirməliyəm ki, işğal dövründə 30 il ərzində ermənilər və Ermənistan dövləti o vaxt işğal altında olan torpaqlarda bütün infrastrukturu, bütün binaları, tarixi, dini abidələrimizi dağıtmışlar, bunu təsdiqləyən bir çox sənədlər, video-foto məlumatlar vardır. O cümlədən Kəlbəcər və Laçın rayonlarında 30-dan çox su elektrik stansiyasını məhv etmişlər və biz artıq azad edilmiş torpaqlarda genişmiqyaslı işlərə başlayaraq, o cümlədən elektroenergetika sahəsinə böyük diqqət göstərmişik. Keçən il 4 su elektrik stansiyasını bərpa etmişik. Onların ümumi generasiya gücü 20 meqavatdır. Bu il isə 5 su elektrik stansiyasının yenidən qurulması planlaşdırılır və bu stansiyaların generasiya gücü 27 meqavat olacaqdır. Düzdür, digər stansiyalarla müqayisədə həcm o qədər də böyük deyil. Lakin bu stansiyaların ancaq Kəlbəcər və Laçın rayonlarında sayı 30-dan çox olacaqdır və bu, su elektrik stansiyalarıdır. Günəş və külək elektrik stansiyalarının yaradılması üçün təbii ki, daha böyük potensial var. Yenə də demək istəyirəm ki, bütün infrastruktur yaradılıb, daxili xətlər müasirləşdirilib, bir çox yarımstansiyalar inşa olunub, o cümlədən azad edilmiş torpaqlarda cəmi bir il ərzində 7 yarımstansiya yaradılıbdır.

Xarici bazarlar bizim hüdudlarımızın kənarındadır və Avropadadır. Yenə də deyirəm, böyük tələbat var. Daxili tələbat artmaqdadır. Müstəqillik dövründə Azərbaycan əhalisi 7 milyondan 10 milyona çatıbdır. Yəni, bu, əlbəttə ki, böyük üstünlükdür. Eyni zamanda, sənaye və iqtisadiyyatımız artır. Bu ilin iki ayında ümumi daxili məhsul 6,7 faiz, qeyri-neft sektoru 10,1 faiz, qeyri-neft sənaye istehsalı təxminən 21 faiz artmışdır. Bütün bunlar postpandemiya dövründə əldə edilmiş nailiyyətlərdir və onu göstərir ki, Azərbaycanda aparılan islahatlar, sənayeləşmə siyasəti, biznes mühitinin yaxşılaşdırılması və xarici sərmayənin cəlb edilməsi istiqamətində, doğrudan da, təqdirəlayiq addımlar atılır. Əlavə etsəm ki, Azərbaycan dünya miqyasında o ölkələrdəndir ki, ölkəmizdə xarici dövlət borcu çox aşağı səviyyədədir, cəmi 7,4 milyard dollardır. Əgər istəsək, biz bu borcu bir gün ərzində sıfırlaya bilərik. Əlbəttə ki, həm beynəlxalq maliyyə qurumları, həm böyük şirkətlər, investorlar Azərbaycana çox böyük maraqla yanaşırlar. Bizim siyasətimiz isə ölkəmizin bundan sonrakı sürətli inkişafını təmin etmək, əlbəttə ki, ilk növbədə, azad edilmiş torpaqları bərpa etmək, - bu, böyük ərazidir, 10 min kvadratkilometrdən çox bir ərazidir, - və eyni zamanda, ölkəmizin dayanıqlı inkişafını təmin etməkdir. Bu, aksiomadır ki, elektrik enerjisi olmadan heç bir ölkə inkişaf edə bilməz. Bu, birinci şərtdir, bu, əsas şərtdir. Xoşbəxtlikdən Azərbaycanda zəngin neft və qaz yataqları vardır və bu yataqların istismarı və işlənilməsi uğurla gedir. Müasir infrastruktur vardır - həm nəqliyyat, həm kommunikasiya, həm də elektrik xətləri ixrac bazarları ilə bizi birləşdirir. Güclü siyasi iradə vardır. Dünyanın demək olar ki, əksər ölkələri ilə sıx tərəfdaşlıq əlaqələri vardır. Bir çox dostlarımız var, onlardan biri də Birləşmiş Ərəb Əmirlikləridir. Mən bütün sərmayə maraqlarını, biznes maraqlarını nəzərə alaraq onu da bildirməliyəm ki, əgər iki ölkə arasında yaxın dostluq əlaqələri olmasaydı, yəqin ki, bu layihəni də biz görməzdik. Yəni, bütün bu amillərin vəhdəti çox gözəl bir imkan yaradır. Hesab edirəm ki, biz bu imkandan böyük səmərə ilə istifadə edirik və edəcəyik.

BƏƏ-nin naziri: 2030-cu ilə qədər bərpa olunan enerji sahəsindəki hədəflərimiz Azərbaycanla eynidir

"Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) və "Masdar" şirkəti təmiz enerjiyə aid geniş gündəliyin icrasında Azərbaycana birbaşa xarici sərmayələrini və dəstəyini davam etdirməyi səmimiyyətlə arzulayırlar. Biz tərəfdaşlığımızı daha da gücləndirmək üçün böyük imkanları araşdıracağıq".

Bu sözləri Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti tərəfindən Azərbaycanda inşa ediləcək 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının martın 15-də Gülüstan sarayında keçirilən təməlqoyma mərasimində BƏƏ-nin Energetika və İnfrastruktur naziri Suhail Al Mazrouei deyib.

O bildirib ki, Birləşmiş Ərəb Əmirlikləri Azərbaycanın yaxın dostudur: "Bizi dərin mədəni və iqtisadi əlaqələr, eləcə də təmiz enerjiyə əsaslanan dayanıqlı gələcəklə bağlı ümumi baxışlarımız bağlayır. Bu gün bu əlaqələr daha da güclənir.

Mən bu mühüm layihənin gerçəkləşdirilməsinə yardım etmək məqsədilə "Masdar" şirkətinə və Birləşmiş Ərəb Əmirliyinə etimad göstərdiyinə görə Prezident İlham Əliyevə, Azərbaycan dövlətinə şəxsən təşəkkürümü bildirmək istəyirəm".

"Azərbaycan 2030-cu ilə qədər bərpa olunan enerji sahəsində quraşdırılmış güclərin 30 faizə qədər artırılması kimi mühüm məqsədləri öz qarşısına qoyub. Biz Birləşmiş Ərəb Əmirlikləri də eyni məqsədi öz qarşımıza qoyuruq. Biz də 2030-cu ilə qədər həmin həcmin 30 faizə qədər artırılmasını planlaşdırırıq", - deyə nazir vurğulayıb.

"Qaradağ" Günəş Elektrik Stansiyasına 225 milyon ABŞ dolları məbləğində investisiya qoyulacaq

"Qaradağ" Günəş Elektrik Stansiyasına (GES) 225 milyon ABŞ dolları məbləğində investisiya qoyulacaq".

Bunu Birləşmiş Ərəb Əmirliklərinin Energetika və İnfrastruktur naziri Suhail Al Mazrouei mətbuat konfransında bildirib.

İl yarıma stansiyanın inşasının yekunlaşmasının nəzərdə tutulduğunu söyləyən nazir deyib: "Azərbaycan "yaşıl enerji" sahəsində öz siyasətini uğurla həyata keçirir və BƏƏ-nin bu prosesdə iştirak etməsi ikitərəfli strateji tərəfdaşlığın inkişafı üçün böyük əhəmiyyət daşıyır. "Qaradağ" GES-nin tikintisi karbon qazı tullantılarını ildə iki min tonadək azaltmağa imkan verəcək. Layihənin reallaşdırılması 110 min yaşayış evini elektrik enerjisi ilə təchiz edəcək. Stansiyanın tikintisində 700 nəfərə yaxın işçi çalışacaq. GES istismara verildikdən sonra isə burada 25-30 nəfər işləyəcək. Bundan başqa, tikinti materiallarının 20 faizi yerli bazardan satın alınacaq ki, bu da Azərbaycan müəssisələrinin inkişafı üçün çox vacibdir".

Nazir deyib ki, GES-in hesabına 110 min mənzilə elektrik enerjisi veriləcək.

Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinə mediatur təşkil olunub

Martın 15-də İqtisadiyyat Nazirliyinin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinə (4SİM) mediatur təşkil olunub.

Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin icraçı direktoru Tamerlan Tağıyev KİV nümayəndələrinə Mərkəzin fəaliyyəti, ölkəmizin 4-cü Sənaye İnqilabının yaratdığı imkanlardan bəhrələnməsi istiqamətində görülən işlər və bu sahədə Dünya İqtisadi Forumu ilə əməkdaşlıq istiqamətləri barədə məlumat verib.

Qeyd edilib ki, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 6 yanvar tarixli Fərmanı ilə İqtisadiyyat Nazirliyinin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi yaradılıb. Mərkəz ölkəmizin Dördüncü Sənaye İnqilabı sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla əməkdaşlığını və bu sahədə əlaqələndirməni, habelə rəqəmsal iqtisadiyyat üzrə çağırışların, təşəbbüslərin, strategiyaların və layihələrin təhlilini və koordinasiyasını həyata keçirir.

Bundan əlavə, 22 dövlət qurumunun nümayəndələrindən ibarət "4-cü Sənaye İnqilabı" üzrə və 11 dövlət qurumunun nümayəndələrindən ibarət "Rəqəmsal ticarət" üzrə İşçi qruplar yaradılıb və hər iki İşçi Qrupun koordinasiyası da Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi tərəfindən həyata keçirilir. Tamerlan Tağıyev işğaldan azad edilmiş ərazilərimizin bərpasında 4-cü Sənaye İnqilabı texnologiyalarının tətbiqinin önəmini vurğulayıb və ən qabaqcıl texnologiyaların Azərbaycana gətirilməsi və "Ağıllı" və "yaşıl" Qarabağın qurulmasında Mərkəzin öz töhfəsini verəcəyini qeyd edib.

Alman-Azərbaycan Xarici Ticarət Palatası ilə vergi sistemində aparılan islahatlar barədə müzakirələr aparılıb

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti (DVX) və Alman-Azərbaycan Xarici Ticarət Palatasının (AHK-Azərbaycan) rəhbərliyi arasında görüş keçirilib.

DVX-nin İctimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərli ölkəmizin vergi sistemində apardığı islahatlara diqqət çəkərək, bu islahatların biznes və investisiya mühitinin yaxşılaşdırılması, vergi yükünün azaldılması, vergilərin optimallaşdırılması, vergi orqanları ilə sahibkarlar arasında münasibətlərin yeni müstəvidə qurulması və vergi inzibatçılığının təkmilləşdirilməsi ilə bağlı olduğunu söyləyib.

Qeyd edilib ki, Dövlət Vergi Xidmətinin başlıca strategiyası dövlətin həyata keçirdiyi fiskal siyasətə uyğun olaraq vergiödəyiciləri tərəfindən büdcəyə ödənilən vergilərin tam və vaxtında ödənilməsini təmin etməkdir. Müasir iqtisadi şərait, biznes mühiti, iqtisadiyyatın strukturunda baş verən dəyişikliklər həm vergi ödənişlərinin təmin edilməsi, həm də vergi inzibatçılığının həyata keçirilməsi baxımından qarşıya yeni tələblər qoyur. Vergi inzibatçılığının və qanunvericiliyin təkmilləşdirilməsi, vergiödəyicilərinə göstərilən xidmətlərin keyfiyyətinin artırılması, vergiödəyiciləri ilə əlaqələrin yeni müstəvidə qurulması həyata keçirilən islahatların əsas prioritetlərindəndir.

Görüşdə birgə əməkdaşlıq imkanlarının inkişafına toxunan AHK-Azərbaycanın icraçı direktoru Tobias Baumann qeyd edib ki, AHK-Azərbaycan 2012-ci ildən etibarən alman iqtisadiyyatının Azərbaycanda rəsmi nümayəndəliyi olaraq, şirkətlərə bazar və biznes araşdırmaları ilə bağlı məlumat və dəstək verir. Həmçinin, 140-dan artıq üzv şirkəti ilə AHK-Azərbaycan Avropanın ölkəmizdəki ən geniş şəbəkəyə malik iqtisadi assosiasiyalarından biridir.

Kiçik və Orta Sahibkarlığın kapital bazarlarında iştirakına dair görüş keçirilib

Martın 15-də Asiya İnkişaf Bankı ilə Kiçik və Orta Sahibkarlığın kapital bazarlarında iştirakına dair görüş keçirilib.

Bakı Fond Birjasından bildirilib ki, məqsəd Asiya İnkişaf Bankının Asiyada Kiçik və Orta Sahibkarlığın Monitorinqi (AKM) nəşri ilə bağlı Bakı Fond Birjası ilə fikir mübadiləsi etmək olub. Görüşdə ötən il və bu il ərzində Bakı Fond Birjası, Azərbaycan Mərkəzi Bankı, Birjanın üzvü olan investisiya şirkətləri və KOBİA-nın tərəfdaşlığı nəticəsində həyata keçirilən İnvestisiya Səyahəti tədbirlərinin Kiçik və Orta Sahibkarlığın Kapital Bazarları barəsində məlumatlanmasında əhəmiyyəti barədə danışılıb. Bununla yanaşı, görüş zamanı Listinq Məsləhət Proqramının üstünlükləri vurğulanıb və bu proqrama qoşularaq Kiçik və Orta Sahibkarlıq nümayəndələrinin qiymətli kağız buraxılışında dəstək imkanının mövcudluğu bildirilib.

Azərbaycanın beynəlxalq hava limanlarında sərnişin axını təxminən 200 faiz artıb

Cari ilin fevral ayında Azərbaycanın beynəlxalq hava limanları ümumilikdə 255 min sərnişinə xidmət göstərib. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,8 dəfə çoxdur.

Heydər Əliyev Beynəlxalq Aeroportunun mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, ümumilikdə ilin əvvəlindən bütün aeroportlar üzrə sərnişin axını 546 min nəfər təşkil edib və bunun da 80 faizi Heydər Əliyev Beynəlxalq Aeroportunun payına düşüb. Bakı hava limanının baza aviadaşıyıcıları – "Azərbaycan Hava Yolları" və "Buta Airways" 167 min və 52 min sərnişin daşıyıb ki, bu da müvafiq olaraq xidmət göstərilən sərnişinlərin ümumi payının 38 faizini və 12 faizini təşkil edir.

2022-ci ilin fevral ayında 24 xarici aviaşirkət Bakı hava limanına uçuşlar həyata keçirib. Aviadaşıyıcılar Azərbaycandan Türkiyə, Rusiya, BƏƏ, Gürcüstan, Ukrayna, Belarus, Qətər, İsrail, Almaniya, Böyük Britaniya, Küveyt, Bəhreyn və Səudiyyə Ərəbistanına uçuşlar yerinə yetirib.

Bu ilin mart ayından etibarən Ukraynada baş verən hadisələrlə əlaqədar Ukrayna, Rusiya və Belarusa uçuşlar müvəqqəti olaraq dayandırılıb.

Sığorta sahəsində keçirilmiş attestasiyanın nəticələri açıqlanıb

Azərbaycan Mərkəzi Bankında sığorta sahəsi üzrə attestasiyalar keçirilib.

AMB-dən bildirilib ki, nəticələrə əsasən, attestasiyada iştirak edən namizədlərdən 3 nəfər keçid balını toplayaraq, attestasiyanı müvəffəqiyyətlə başa vurub.

Qeyd edək ki, "Sığorta sahəsində attestasiyanın təşkili və keçirilməsi" Qaydasının 4.6-cı bəndinə əsasən attestasiyada iştirak edən şəxs 70 test tapşırığına düzgün cavab verdikdə attestasiyadan keçmiş hesab olunur.

Qalib ölkənin 2021-ci il hesabatı yüksək qiymətləndirilib

Martın 15-də keçirilən Milli Məclisin növbəti plenar iclasında Nazirlər Kabinetinin ötənilki fəaliyyəti barədə hesabat dinlənilib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkə iqtisadiyyatında həyata keçirilən dinamik dəyişikliklərin geniş şəkildə öz əksini tapdığı hesabatın həm də 2018-ci ildən bu yana ölkənin sosial-iqtisadi həyatında həyata keçirilən dərin iqtisadi islahatların əsaslı nəticələrindən olduğu vurğulanıb. Bu iqtisadi islahatlar içərisində, xüsusilə cari ilin əvvəlindən minimum əməkhaqqının, əmək pensiyalarının, bütün növ sosial müavinətlərin, təqaüdlərin əhəmiyyətli dərəcədə artırılması, xarici valyutada götürülmüş kreditlərin artan hissəsinin ödənilməsi barədə qərarın qəbul edilməsi qeyd olunmuşdur. İqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft ixracının stimullaşdırılması, aqrar sahəyə dövlət dəstəyinin artırılması istiqamətində ciddi addımların atılması, ölkənin valyuta ehtiyatlarının 3 milyard dollar artaraq, ilin sonuna 45 milyard dollara bərabər olması, xarici dövlət borcunun 22,8 faizdən 19 faizə düşməsi, xarici ticarət dövriyyəsində 8 milyard dollarlıq müsbət saldonun yaranması da bu islahatların əsaslı nəticələri kimi göstərilmişdir.

Azərbaycan dövlətinin reallaşdırdığı bu islahatlar aparıcı beynəlxalq təşkilatlar, nüfuzlu reytinq mərkəzləri tərəfindən də yüksək qiymətləndirilmişdir. Dünya Bankının "Doing Business-2019" hesabatında biznes mühitinin əlverişliliyinə görə ölkəmiz əvvəlki illərlə müqayisədə 32 pillə irəliləyərək, 190 ölkə arasında 25-ci yerə yüksəlmişdir. Ölkəmizin kredit reytinqinə görə də mövqeyi xeyli möhkəmlənmişdir.

Digər beynəlxalq reytinq agentliklərinin hesabatlarına görə də Azərbaycanın mövqeləri əhəmiyyətli dərəcədə yaxşılaşmışdır.

Hesabatın müzakirəsi zamanı **Prezident İlham Əliyevin apardığı sosial-iqtisadi siyasətin mahiyyətində əhalinin aztəminatlı təbəqəsinin rifahının davamlı olaraq yüksəldilməsinin dayandığı qeyd olunmuş, bu məsələyə hesabat ilində xüsusi önəm verildiyi bildirilmişdir. Dövlət büdcəsinin xərclərinin 31,7 faizi və ya 7,2 milyard manatı sosialyönümlü xərclərin payına düşüb ki, bu da 2017-ci illə müqayisədə 7,6 faiz çoxdur. Əmək pensiyalarının artırılması 1,2 milyon pensiyaçını və ya onların 94 faizini əhatə edib. Pensiyaların orta aylıq məbləği ötən illə müqayisədə 6,2 faiz, yaşa görə pensiyanın orta aylıq məbləği isə 6,7 faiz artıb.**

Özünüməşğulluq proqramının əhatə dairəsinin il ərzində 6,5 dəfə genişləndirilməsi 5 mindən çox ailənin və ya 25 min nəfərə yaxın insanın maddi vəziyyətinin yüksəldilməsinə imkan verib. Hesabat ilində Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanının icrası olaraq, ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların ailə üzvlərinə 11 min manatlıq birdəfəlik ödənişin verilməsinə başlanılıb və

ilin sonuna 34 milyon manat vəsait ödənilib. Əlillərə və şəhid ailələrinə 626 mənzil verilib, 265 nəfər imtiyazlı şəxs pulsuz minik avtomobili ilə təmin olunub.

Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən Yasamal yaşayış kompleksində 29 yaşayış binasının, 1 məktəbin, 1 uşaq bağçasının tikintisi yekunlaşdırılaraq sosial mənzillərin satışına başlanılıb. Bundan əlavə, respublikanın regionlarında 1530 yerlik 18 uşaq bağçasının və körpələr evinin, Abşeron rayonunun Masazır qəsəbəsində valideyn himayəsindən məhrum olmuş kimsəsiz məzunlar üçün yaşayış kompleksinin inşası tamamlanıb. Əvvəlki illərdə olduğu kimi, əhalinin həssas təbəqəsi olan məcburi köçkünlərin sosial problemlərinin həllinə xüsusi diqqət yetirilib, bu məqsədlərə ayrılmış maliyyə vəsaiti hesabına salınmış və bütün lazımi infrastruktur yaradılmış qəsəbələrdə 5900 ailə yeni mənzillərlə təmin edilib.

Hesabat dövründə Dağlıq Qarabağ münaqişəsinin həlli xarici siyasətdə prioritet olub. Bu baxımdan "Avropa İttifaqı və Azərbaycan arasında "Strateji Tərəfdaşlıq" adlı prioritet sənəd xüsusi olaraq qeyd edilib.

Ötən dövrdə valyuta ehtiyatları 3 milyard dollar artmış, büdcənin gəlirləri proqnozdan 360 milyon manat çox olmuşdur.

Ötən il Azərbaycanda 19,2 milyard kubmetr qaz istehsal edilib. Sumqayıt Kimya Parkında karbamid zavodu fəaliyyətə başlayıb. Bu zavodda ildə 650 min ton məhsul istehsal ediləcək. Bu zavodun məhsullarının xarici ölkələrə satışından hər il 160 milyon dollar gəlir əldə edilməsi gözlənilir. Türkiyədəki "Star" zavodu isə ölkəyə ilk 5 ildə hər il 850 milyon dollardan çox gəlir gətirəcək.

Prezident İlham Əliyev ərzaq təhlükəsizliyinə xüsusi diqqət yetirir. Belə ki, ötən il 451,5 milyon manat məbləğində investisiya hesabına 568 kilometrdən artıq suvarma kanalında bərpa işləri aparılıb, 50 min hektardan artıq ərazidə suvarma işləri yaxşılaşdırılıb. Nəticədə 2017-ci illə müqayisədə 2018-ci ildə kənd təsərrüfatı məhsullarının istehsalı 4,2 faiz artıb.

Ötən il il yol infrastrukturuna 1,7 milyard manat vəsait yönəldilib. Həmin müddətdə ölkənin 11 rayonunda yerləşən xalçaçılıq fabriklərində 5,5 min kvadratmetrdən artıq xalça toxunub. Ötən il 800-ə qədər məktəb və uşaq bağçası tikilib, yenidən qurulub, 8120 yerlik modul tipli məktəblər istifadəyə verilib.

2018-ci ildə Azərbaycan idmançılarının beynəlxalq yarışlarda 753 medal qazandığı da diqqətə çatdırılıb.

Tədbirdə, həmçinin ölkəmizin iqtisadi rəqabət qabiliyyətinin artırılması, tələbə şəhərciklərinin salınması, parlament diplomatiyasının gücləndirilməsi, təhsil, səhiyyə, mədəniyyət sahələri, ölkədə pul-kredit siyasəti və seçiciləri maraqlandıran məsələlərlə bağlı fikirlər səsləndirilib, təkliflər verilib. Nazirlər Kabinetinin 2018-ci ildə fəaliyyəti barədə hesabatı deputatlar tərəfindən də yüksək qiymətləndirilib.

Hesabatın səsə qoyulmasından sonra iclas başa çatıb.

İQTİSADİYYAT

Məktub yetişdi...

Zaman da yetişdi, bu düşüncələri ağ vərəqlərlə bölüşüb, Sizə ünvanlamağın vaxtı-vədəsi də...

Sizə çox məktub yazırlar - müstəqil dövlətin Prezidenti kimi - minnətdarlıq duyğusu ilə...

Bu məktubsa, düşünürəm ki, daha çox ruhun ehtiyacıdır...

İnsan öz duyğularını, düşüncələrini həmişə məktubların dili ilə ifadə edib. Məktubla və sözlə...

...Və bu qəlb çırpıntılarımı - nisgildən vüsala, məğlubiyyətdən Zəfərə, qaçqın şəhərciklərindən doğma obalarımıza qədər uzanan kövrək duyğularımı məmləkətimizə yeni növraq gətirən Novruzun ərəfəsində yekunlaşdırmağa qərar vermişdim...

Fikirləşdim ki, elə bu məktubu da azad etdiyiniz, təmizlədiyiniz, yolumuzu açdığınız Zəngəzurun qəlbimdəki rəmzi poçtu ilə Sizə göndərim!..

...Hər dəfə ilk bahar yetişəndə, yaz gülləri açılanda qərəmət məni basırdı, bu misraların hərarəti qərib yurdlarımıza niyə gedib çatmır, o yurdlarımız bu gözəllikdən niyə məhrumdur?!..

Elə bilirdim o torpaqlarda zaman şaxtalı, sazaqlı bir qış günündə ilişib qalıb...

Boynu bükük bənövşələrini də, səmada qanadlanıb bahar müjdəsini dünyaya yetirmək istəyən qaranquşlarını da, çiçəkdən-çiçəyə qonub bal toplamaq həsrətində olan arılarını da sankı don vurub...

O anlardaca sümüklərim üşüyürdü, şaxtanın qılınc kimi kəsdiyi sazaqlı bir qış günündə doğmaları üçün məktub yazdıran, amma məktubu yetişməyən Qurbanı - unudulmaz ədibimiz Abdulla Şaiqin "Məktub yetişmədi" hekayəsinin bu zavallı qəhrəmanının faciəli taleyini yada salırdım...

Ədəbi yaddaşımızda uzun onilliklərdir məktubun yetişməməsinin bax belə bir sızıltısı var idi...

Bu sızıltıdan daha göynərtilisi isə qəlbimizin qaysaq bağlamaz yurd yarasıdır. Onun da əzablı ağrıları içində düşünürdüm ki, görəsən, bu həsrət, bu qubar, nə zaman bitəcək, nə zaman?!..

Düşünürdüm ki, aman Allah, o yerlərin səmasının qara çərşabı, dağlarının və düzlərinin ağ kəfəni bəs nə vaxt qalxacaq?! Məktublarımız bəs nə zaman yetişəcək?!

* * * * *

...Bu məktub da uzun illərin həsrətiylə yol gəlirdi...

...2020-ci ilin hər dəqiqəsi tarix olan payız günlərindən, ağacların qızılı libasına büründüyü, təbiətin daha bir fəsil dəyişikliyinə yır-yığış elədiyi vədələrdən və o günlərdə televizorun ekranı qarşısında, radio önündə ayaq üstə dayanıb həyəcandan titrəyən, amma eşitdiyi hər kəlmənin sehrini, enerjisini, ruhunu qaçırmamaq üçün nəfəs almadan...

Sizin qələbə müjdələrinizi dinləyən insanlarımızın sevinc anlarından bəri iç dünyam ünvanınıza yetiriləsi kəlmələrlə dolu idi...

* * * * *

Ötən ilin oktyabrında tarixi fərmanınızla yaratdığınız Şərqi Zəngəzura – onun laləzar guşəsi olan Zəngilana, ata yurduma səfər etdiniz.

Silahdaşınız, çiyindaşınız, Vətən dərdinə birgə əlac olduğunuz Mehriban xanımla səmimi görüşlər keçirdiniz.

Taleyimə minnətdaram ki, bu tarixi görüşdə iştirak etmək, həmin unudulmaz anları yaşamaq, hər dəqiqəsi bir ömrə dəyən təəssüratları yaddaşıma köçürmək mənim də qismətim oldu.

Sonra yenə Şərqi Zəngəzura – onun dilbər guşəsi olan Qubadlıya, ana yurduma gəldiniz...

Hər iki yurdum böyük coşqu, əbədi şükranlıqla qarşıladı hər ikinizi...

Sizin xoş qədəmlərinizlə hər iki doğma yurdumdaca həyat qaynadı, quruculuq, abadlıq işləri başladı.

Və hamı, bütün el-oba boylanıb, səbirsizliklə baharı gözlədi...

Və gəldi o bahar...

Yeni, təptəzə və uzun illərin həsrətindən sonra tarixi bir bahar...

Nədənsə həmişə mənə elə gəlib ki, ağaclar, güllər kimi, insan düşüncələrinin və onları ifadə edən kəlimələrin də tumurcuqladığı çağlar var, ona görə də bu məktubu qələmə almaq üçün həmin çağlara, baharın çərşənbələrinə qədər səbir etməyi üstün tutdum.

Şah İsmayıl Xətainin bir əlində qılıncı, bir əlində qələmi - baharın gəlişi münasibətilə yazdığı misralar...

Əsrlərin o üzündən yaz mehi kimi ürəyimi oxşayır:

"Qış bitdi və bahar gəldi,
Gül bitdi və laləzar gəldi..."

Bahar nəfəsli od çərşənbəsi axşamı ocaq çatıb bayram əhval-ruhiyyəsini bölüşən insanlar evlərinə yığışandan, bayırda əl-ayaq çəkiləndən sonra məktubumun ilk cümlələrini yazmağa başladım...

Bax, ürəyində nakam arzularla yaşayan bəndənizin məktubu da belə yetişdi...

Xeyirli olsun!..

* * * * *

Biz illərdən bəri daş kimi ürəyimizdən asılı qalan, qəddimizi əyən, gələcəyə göz dolu baxmağımıza mane olan, xoşbəxtlik hissimizi korşaldan ağırlıqdan məhz Sizin sayənizdə xilas olduq.

Zindan kimi bu ağır daş «Dəmir yumruğ»unuzun zərbəsi ilə param-parça oldu, işğal acılarımızı geridə buraxdıq...

Zülmətə qərq olmuş yurdlarımızın çırağını yandırdınız, kotana, toxuma, insan əlinin tumarına, yamyaşıl taxıl zəmilərinin gözəlliyinə həsrət torpaqlarımıza bərəkət gətirdiniz...

Kor qoyulmuş ayna bulaqlarımıza su, kol-kos basmış yollarımıza abadlıq, tarmar edilmiş şəhərlərimizə, kəndlərimizə, qəsəbələrimizə dirçəliş bəxş etdiniz...

Qurucu əllərinizlə bu torpaqlarda yeni bir həyat başlatdınız...

Ağırlığımızı-uğurluğumuzu yellər apardı, ayağımızı yer götürdü, ürəkləndik, qüvvətləndik!..

Elimizin ruzisini də Allah yetirəcək həmişə, sağlıq olsun. Çünki Yaradanın böyük bir lütfü kimi bu xalqın el qədri bilən, vətəndaşlarının halından anlayan Sizin kimi rəhbəri var. Həyata keçirdiyiniz inkişaf siyasəti var, ölkəmizə böyük uğurlar qazandıran sosial-iqtisadi layihələriniz var.

Azərbaycanın daha da qüdrətlənməsi üçün reallaşdırdığınız fürsətlər, əli işgüc tutan bütün insanlarımıza işləyib özünün, ailəsinin dolanışığını təmin etməkdən ötrü yaratdığınız imkanlar var.

Ölkəmizdə sakitlik, normal həyat ahəngi, qanunlara, dövlətçilik dəyərlərinə getdikcə yüksələn hörmət ruhu, rəvan inkişaf yolu var və bütün bunların müəllifi və təminatçısı məhz Sizsiniz!

* * * * *

Nəhəng dünya nehrə kimi çalxalanır, dövlətlər, xalqlar, dünənə qədər bir-biri ilə qardaş sayılan toplumlar, soyu-kökü, dini, dili bir insanlar üz-üzə qoyulur, qanlı-bıçaqlı olur.

Adamların başına od ələnir, ölüm saçan silahlar nakam ömürlərə son qoyur, əsrlərlə tikilib-qurulmuş qədim şəhərlər xarabazara çevrilir.

Niyyət bəlli, mahiyyət aydındır: kimlərsə yenə suyu bulandırıb balıq tutmaq istəyir, kimlərinsə maraqları üst-üstə düşmür, geopolitik iştahalar üzündən xalqlar, sadə insanlar diş altında qalır, faciələrə sürüklənir, həyatlar qaralır, bomba gurultusundan zəhri yarılan körpələrin fəryadı ürək parçalayır.

Bir o qədər də beynəlxalq güclərin riyakarlığı, məsələlərə ikili və soyuq yanaşmaları adamda hiddət doğurur. Azərbaycanın haqq-ədalət uğrunda apardığı savaşda Sizi bu müqəddəs yoldan çəkindirmək, qələbəmizə mane olmaq üçün min bir fənd düşünənlər, illərdir ki, işğala məruz qalana deyil, işğalçıya qahmar çıxanlar, meydan verənlər indi tamam başqa cür mövqelər sərgiləyirlər, ədalətsizlikləri ilə yeni problemlərin təməlini qoymağa çalışırlar, ikrah doğururlar.

Ordumuzun gücü ilə tarixi qələbəmizi necə böyük çətinliklər, fədakarlıqlar bahasına qazandığınız, diplomatik arenada nə qədər maneələri aşdığınız, üzərinizə yönələn təhdidləri necə gərginliklər hesabına dəf etdiyiniz indi əyan olur.

Vətən müharibəsinin hərbi əməliyyatlarını özünüz kimi mübariz, şir biləkli, aslan ürəkli əsgər və zabitlərimizlə apardınız.

Əsl sərkərdə məharəti ilə döyüşləri idarə edir, düzgün taktikanız, dəqiq əmrlərinizlə ordumuzu ardıcıl qələbələrə yetirirdiniz. Xalqa yetirdiyiniz zəfər müjdələrindən, hərbi əməliyyatlar haqqında açıqlanan məlumatlardan proseslərin necə də uğurla getdiyi gözlərimiz önündəydi.

Diplomatik səngərlərdə isə nələrin baş verdiyindən, necə oddan-alovdan keçdiyinizdən biz xəbərsiz idik, əyləşib ekran qarşısında elə hey Sizi axtarırdıq...

Yeni Qələbə müjdələrinizin intizarını çəkirdik...

Bu meydanda təkbaşına döyüşürdünüz, Azərbaycana yönələn təzyiqlərə təkbaşına sinə gərirdiniz, dünyanın dörd bir yanından ara verməyən hücumların, fitnə-fəsadların qarşısını alırdınız.

Bu haqq işində öz Liderinə dəstək verən, milli vəhdəti ilə dünyaya görk olan xalqımıza güvənərək...

Azərbaycan uğrunda ölümün gözünə dik baxan insanlarımızın sağlam ruhuna, Vətənə sədaqətinə əminliklə...

Müdrikliyinizə, fəhminizə, dövlətimizi xoşbəxt gələcəyə aparmaq üçün seçdiyiniz yolun ən düzgün yol olduğuna etibar edib, hər qətiyyətli addımınızda mənəvi dəstək verən, Siz olan yerdə Azərbaycanın taleyindən xatircəm qalan, zərrə qədər də tərəddüd hissi keçirməyən xalqımızın bu inamından, güvənindən güc alaraq...

Özünüzün də qeyd etdiyiniz kimi, nəyi, nə zaman və necə etməyi bilməyin, hər şeyi zərgər dəqiqliyi ilə ölçüb-biçmək, yaranmış ən ani fürsəti belə Azərbaycanın daimi faydasına çevirməyi bacarmaq səriştəsinin verdiyi üstünlüklə...

* * * * *

Bu səriştənin, fenomenal bacarıqların, proseslərə çevik və peşəkar reaksiyaların, informasiyalarla işləmək qabiliyyətinin böyük dövlət adamı, bütün zamanların ustad siyasətçilərindən olan Heydər Əliyev məktəbindən gəldiyi dərhal bilinir... Bu məktəbdə əxz etdiklərinizin üzərinə toplanan illərin təcrübəsi isə indi Sizin özünüzü də qlobal siyasət məkanının böyük ustadına çevirib...

Davranışlarınız, tərziniz, verdiyiniz qərarlar, məsələlərə strateji yanaşmalarınız, əldə etdiyiniz parlaq nəticələr çoxları üçün əsl ustad dərsləridir!..

Beynəlxalq məkanda baş verən hadisə və proseslərə münasibətiniz, bu günə və gələcəyə baxışlarınız, beynəlxalq səviyyədə irəli sürdüyünüz təşəbbüslər hamıya maraqlıdır, hər kəs üçün mühümdür. Tarix proqnozlarınızın, mühakimələrinizin düzgünlüyünü, təşəbbüslərinizin nə qədər əsaslı olduğunu təkcə Azərbaycana deyil, ümumən dünyamıza faydalarını zaman-zaman sübuta yetirirdi...

Və bundan sonra da yetirəcək!..

Ona görə ki, başqaları öz xırda maraqlarını güdərkən, Siz insan taleyini fikirləşirsiniz...

Başqaları dağıtmaq yolunu seçərkən, Siz adınızı tarixdə qurucu əməllərinizlə əbədiləşdirirsiniz!

Başqaları danışıb vədlər verərkən, Siz real tarixi işlər görürsünüz.

Hələ orasını demirəm ki, həyata keçirdiyiniz məqsədyönlü siyasətlə, mövcud imkanları reallığa çevirmək qabiliyyətinizlə bu ərazicə kiçik ölkəmizi Yer üzünün ən əhəmiyyətli mərkəzlərindən birinə çevirməyi bacarmısınız.

Bu gün dünyanın enerji sisteminin, qlobal logistikanın, beynəlxalq iqtisadiyyatın bir nəbzi də Azərbaycanda sürətlə döyünür.

Müxtəlif coğrafiyalarda, ayrı-ayrı məkanlarda, fərqli məsələlərdə toqquşan, konfliktə girən, münaqişələrə səbəb olan bütün maraqlar Azərbaycanda üst-üstə düşür, uzlaşır, rahatlıqla yola gedir.

Yaxın-uzaq ölkələrdə günahsız insanların başına raketlərin yağdırıldığı zamanda, onilliklər boyu min bir zəhmət bahasına ərsəyə gəlmiş iqtisadi sistemlərin çökdüyü, infrastrukturun darmadağın olduğu, yeni münaqişə ocaqlarının körükləndiyi, son dərəcə çətin əyyamlarda Azərbaycanda böyük perspektivlər vəd edən strateji əməkdaşlıqlar, qarşılıqlı faydalar başlanır, hamının gələcəyi aydınlıqla görə bildiyi, əmin olduğu tərəfdaşlıq mühitinin qapıları açılır.

Bax bu mühiti Siz yaratmısınız!..

Qarabağ, Şərqi Zəngəzur Sizin əsərinizdir!..

Tarixi əsərləriniz!..

Yollar da arzularımız kimidir, açılıb, uzanıb gedir: Bakıdan Qarabağa, Zəngəzura... Ordan da haralara - yaxşısını Siz bilirsiniz...

* * * * *

Beynəlxalq arenada Sizə olan münasibətdən maraqlı bir məqam da həmişə diqqətimi çəkib.

Azərbaycan vətəndaşları kimi, beynəlxalq siyasətin əsas iştirakçıları da Sizə inanırlar, rəğbət bəsləyirlər, etibarlarında, əməkdaşlıq meyillərində əsla tərəddüd etmirlər.

Hiss olunur ki, əslində, böyük siyasətdə də mərdanəlik, bütövlük, verilən sözlərə sadiqlik, şərəf və ləyaqət hissi üstün dəyərlər sayılır. İntəhası, böyük siyasətdəki hər kəs də bu dəyərlərin daşıyıcısı ola bilmir. Məqsədlərə çatmaqdan ötrü hər cür vasitəni məqbul sayanlar bu dəyərləri məhv edirlər.

Sizə isə ona görə dünyanın böyük ehtiramı, güvəni var ki, həmişə dəyərlərinizi qorumağı bacarırsınız, onları qırmızı xəttin bir tərəfində saxlamağa nail olursunuz, çünki Azərbaycan dövləti, Azərbaycan xalqı, keçmişimiz, bu günümüz və gələcəyimiz elə o müqəddəs dəyərlərdən ibarətdir.

Sizin bu gün qlobal siyasətdəki məğrur, qürurlu, mərd obrazınız, təmsil etdiyiniz ali keyfiyyətlər bizim kimlik hekayəmizdir...

Onlarsız nə milli varlığımızdan əsər-əlamət qalar, nə də Vətənimizdən...

Bu dəyərlərlə güclüsünüz, inam yaradansınız, özünüzün də bəyan etdiyiniz kimi, sözünüzə imzanız qədər dəyər verənsiniz. Diplomatik ortamlarda, dövlətlərarası münasibətlərdə etibar edib, ürək qızdıranların güvəninə axıra qədər sadiqsiniz. Dost saydıqlarınıza və Azərbaycanı da səmimi-qəlbdən dost sayanlara dəstəyinizi, bacardığınız köməyi hətta ən çətin, mürəkkəb şərtlər altında da əsirgəməyənsiniz. Müdrik davranışlarınızla, yerindəcə, məqamındaca verdiyiniz qərarlarla xalqımıza düşmən deyil, dostlar qazandıransınız.

Bütün bunların nə qədər önəmli olduğunu Vətən müharibəsində bir daha anladıq, haqq savaşımıza dəstək verənlərin, ən azı o günlərdə Azərbaycana qarşı təzyiq kampaniyasına qoşulmayanların, imkan düşdükcə, yanımızda olduqlarını büruzə verənlərin xeyli genişlənmiş sayında izlədik, tarixi Zəfərimizin dünyanın siyasi çevrələrində qəbul edilməsində görüb anladıq.

* * * * *

Səbriniz, təmkininiz, ani emosiyalardan uzaqlığınız, hər sözü illərin peşəkar diplomat vərdişi ilə ölçüb-biçib dilə gətirməyiniz, amma, eyni zamanda bu ölçülü-biçili kəlmələrlə də həqiqətləri əsla pərdələməməyiniz, əksinə, ən doğru, ən obyektiv olanları ifadə etməyiniz, başlıcası isə səmimiyyətiniz, haqqın tərəfində durmanıza qəti əminliyiniz - İlahi bir vergidir!..

Bu - ilahi bir dəyərdir...

Bu fitri istedadı qarşınızdakının niyyətini ilk kəlmələrindən anlamaq qabiliyyətiniz tamamlayır.

Müsahibələrinizi dinləyərkən, ilk növbədə, cəsarətiniz heyranlıq doğurur, istənilən media qurumunun təmsilçisinin qarşısına çıxmaqdan, onların istənilən suallarına cavab verməkdən əsla çəkinmirsiniz. Hər belə müsahibəni Azərbaycanın haqq sözünü dünyaya yetirmək üçün yeni bir imkan bilirsiniz, onların istənilən suallarına isə - hətta təxribat məqsədli sual olsa belə, veriləsi tutarlı, əsaslandırılmış cavablarınız var. Müsahibələr gedişində yaranmış çox ani məqamdan çevik şəkildə istifadə edərək, iki-üç kəlmə replikanızla bütün söhbətin möhürünü vurmağınız, opponenti məğlub duruma salmağınız da tamam başqa bir ustalıqdır.

Söhbətə hansı niyyətlə başlamasından asılı olmayaraq, heç bir jurnalist, həmsöhbət Sizdən gərgin emosiyalarla, məyus hisslərlə ayrılmır, əksinə, özü ilə xoş bir ünsiyyətin unudulmaz, pozitiv təəssüratlarını aparır. Sadəliyinizlə, səmimiyyətinizlə, işıqlı təbəssümünüzlə, emosional intellektinizlə olduğunuz ortamdakı insanlarda o qədər gözəl aura yaradırsınız ki, burada hər hansı gərginliklərə, sıxıntılara yer qalmır.

Buna Sizinlə bircə dəfə ünsiyyətdə olmuş hər kəs şahiddir...

* * * * *

Şərqi-Zəngəzurda, dədə-baba yurdumda o tarixi görüşümüzü xatırlayıram...

Nə gizlədim, görüş ərəfəsində xeyli gərgin idim, illərin həsrətindən sonra doğma yurda qovuşmağın ürək döyüntüləri öz yerində, axı dövlət rəhbəri ilə görüşməyin, kəlmə kəsməyin özü də böyük bir məsuliyyətdir, həyəcandır...

Amma Sizinlə görüşün elə ilk dəqiqələrindəcə bütün həyəcanlı anlar, gərginliklər ötüb keçdi, o qədər səmimi, rahat, adamın canına yatan ab-hava yaratdınız ki, hətta çıxış edəndə, əvvəlcədən düşündüyüm qeydlərimi belə unutdum, bir də hiss elədim ki, həmin an ürəyimdən nə gəlirsə, düşüncələrimdən nə keçirsə, onları dilə gətirirəm, bilərəkdən yaratdığınız şərait, verdiyiniz cəsarət dilimi açıb, ürəkləndirib, davranışlarıma sərbəstlik gətirib.

Orasını da fikirləşdim ki, Sizin özünəməxsus, məqsədli şəkildə yaratdığınız o ünsiyyət mühitində başqa cür mümkün deyildi axı, orada adam hər cür sünilikdən, ütülü davranışlardan uzaq tərzdə, necə varsa, yalnız elə ola bilərdi...

Bax, bu imkanı və şansı Siz yaratdınız...

Böyüklük budur!..

Əzəmət budur!..

Həm də sadəlik budur!..

El-obalarımıza, azad yurdlarımıza səfərlərinizdə, sükan arxasında yol gedə-gedə Mehriban xanımın telefonun kameası ilə çəkib paylaşdığı təəssüratlarınızda, doğma ellərimizin dağı, daşı, çayı, ağacı, yolu-rizi ilə sevgi dolu ünsiyyətinizdə, qayğınızda, ümidlərinizdə, torpaqlarımızda xarabalıq mənzərələri yaratmış vandalların bu bədnam əməllərinə qarşı hiddətinizdə də Siz məhz özünüzsünüz. Çox təşəkkürlər!..

Bu obrazınızı çox məhdud texniki imkanlarla, yəni heç bir çəkiliş heyəti, rejissor mizanı, operator işi, ssenarist qeydləri olmadan, adicə bir telefon kameası ilə, amma misilsiz yaradıcı duyumla, peşəkarlıqla çəkib tarixdə əbədiləşdirən, bununla çağdaş kommunikasiya mütəxəssisləri, televiziyaçılar üçün əsl örnəklər yaradan Mehriban xanıma da könül dolusu təşəkkürlər!

Azərbaycan həyatının elə bir sahəsi yoxdur ki, Sizin və Mehriban xanımın - qoşa qanad kimi - diqqətindən kənarda qalsın, bu tarixin əhatə dairəsindən iraq düşsün...

Siz xalqımızın, Vətənimizin keçmişinə, milli-mənəvi dəyərlərinə, coğrafiyasına, yer-yurd adlarına hamıdan çox bələdsiniz. Qarabağın, Şərqi Zəngəzurun toponimlərini, işğaldan azad edilmiş torpaqlarımızın tarixini, ərazi xüsusiyyətlərini, relyefini o qədər dərindən bilirsiniz ki, bu bilgiyə, marağa heyran qalmamaq olmur.

Bütün bunlar Azərbaycana sevginizdən gəlir!

Vətən sevgisi xilqətinizdədir!..

Nə xoş ki, bu sevgini bütün ruhunuzla hiss edir və həm də yaşadırsınız...

Sizin sükan arxasında "Ey Vətən!" nəğməsini dinlədiyiniz anlar, o nəğməni dinləyə-dinləyə azad yurdlarımıza baxıb, gələcəyə doğru yol çəkən gözlərinizdəki sevgi, qürur, qayğı qədər aydın görüntülər...

Necə də gözəl anlar, səmimi dəqiqələr idi...

Həmin nəğməni yalnız Azərbaycanı bu qədər sevən, adını uca tutan, onun bu gününə və gələcəyinə görə məsuliyyəti geniş çiyinlərində, köksündə daşıyan Lider, bax, bu cür sevgi və məhəbbətlə dinləyə bilər...

Və nəhayət ki, o yaz gəldi...

Yaz gəldi azad yurdlarımıza...

Bu yaz - həm də bir başqa yazdır axı...

Otuz ilin həsrətilə, acı intizarı ilə gözlədiyimiz yaz...

Bu yazın müjdəsi, hərarəti, ətri azad yurdlarımızdan şirələnib, boy götürüb gəlir...

Əcdadlarımızın ocaq yerlərində qalanan bayram tonqallarının şöləsi ilə, işğaldan qurtulmuş torpağın sinəsindən boylanan tər bənövşənin, çırtdağ novruzgülünün, kövrək xarıbülbülün xəfif gözəlliyi ilə, insanlarımızın dirçəliş, abadlıq, qurub-yaratmaq əhvalı ilə...

Yeni müjdə və yeni ümidlərlə!..

Bu ruh - Sizə inamdandır, Sizin ardınızca irəlilədiyimiz inkişaf yolunun düzgünlüyünə əminliyimizdən, güvənimizin əbədi gücündəndir...

Sevdiklərinizlə birgə, bax, beləcə, neçə gözəl baharlara, neçə gözəl bayramlara, əziz Xilaskarımız!

Novruz bayramımız mübarək olsun!..

...Və elə bu inamla, bu sevgiylə də tamamlayıram bu məktubumu...

Sağ olun, cənab Prezident!..

İmamverdi İSMAYILOV,
Zəngəzur-Qarabağ-Bakı
14 mart 2022-ci il

"AZSIĞORTA" ASC-nin 31 dekabr 2021-ci il tarixinə BALANS HESABATI

manatla

AKTİVLƏR	Hesabat dövrünün əvvəlinə	Hesabat dövrünün sonuna
I.UZUNMÜDDƏTLİ AKTİVLƏR	**1291836,11**	**949160,05**
Torpaq, tikili və avadanlıqlar	**0**	**0**
Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması	**723061,08**	**655234,34**
		648590,90
Daşınmaz əmlaka investisiyalar	**0**	**0**
Qeyri-maddi aktivlər	**1957079,21**	**0**
Təxirə salınmış vergi aktivləri		
Uzunmüddətli debitor borcları	1957079,21	0
Uzunmüddətli maliyyə aktivləri:		
dövlət qiymətli kağızları	**312500.00**	**312500.00**
qeyri-dövlət qiymətli kağızları		
sair maliyyə aktivləri	400000.00	400000.00
İştrak payı metodu ilə uçota alınmış investisiyalar Təsisçi və ya səhmdarlarla hesablaşmalar		
Sair aktivlər		
Cəmi uzunmüddətli aktivlər	**4684476,40**	**2965485,29**
II . QISAMÜDDƏTLİ AKTİVLƏR		
Ehtiyatlar Debitor borcları:	**8569255,20**	**2946770,03**
birbaşa sığorta üzrə	4160241,57	401185,20
təkrarsığorta əməliyyatları üzrə:	**217083,38**	**163358,62**
təkrarsığortaçı üzrə	163380,38	49897,54
təkrarsığortalı üzrə	53703,00	113461,08
asılı təşkilatlar üzrə		
büdcə üzrə	957776,58	1178195,85
iddia tələbləri üzrə		11799,79
işçi heyəti üzrə	98508,16	1093,20
sığortalılara verilən borclar üzrə		
sair debitorlar	3135645,51	1191137,37
Pul vəsaitləri və onların ekvivalentləri:	**30794942,28**	**19755049,45**
kassa		
hesablaşma hesabı	11612662,07	1062976,70
valyuta hesabı	4426869,09	30695,73
depozit hesablar	14600000,00	18450000,00
sair pul vəsaitləri	155411,12	211377,02
Qısamüddətli maliyyə aktivləri:	**11310580,80**	**8000000,00**
dövlət qiymətli kağızları		8000000,00
qeyri-dövlət qiymətli kağızlarısair maliyyə aktivləri	11310580,80	
Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı:	**8857611,33**	**4150018,65**
həyat sığortası sahəsi üzrə	**8857611,33**	**4150018,65**
qeyri-həyat sığortası sahəsi üzrə	**29327,84**	**260321,31**
Sair qısamüddətli aktivlər:	27531,80	258815,75
gələcək hesabat dövrlərinin xərcləri		
verilmiş avanslar	1796,04	1505,56
təhtəl hesablar		
Sair aktivlər		
Cəmi qısamüddətli aktivlər	**59561717,45**	**35112159,44**
CƏMİ AKTİVLƏR	**64246193,85**	**38077644,73**

KAPİTAL VƏ ÖHDƏLİKLƏR	Hesabat dövrünün əvvəlinə	Hesabat dövrünün sonuna
I. KAPİTAL		
Ödənilmiş nominal (nizamnamə) kapitalı	**20300000,00**	**14007000,00**
Emissiya gəliri		
Geri alınmış kapital (səhmlər)	**0**	**0**
Kapital ehtiyatları:	**0**	**0**
yenidən qiymətləndirilmə üzrə ehtiyat	0	0
digər kapital ehtiyatları	0	0
Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)	**12859896,83**	**3791574,85**
Hesabat dövründə xalis mənfəət (zərər)	1857410,37	757783,31
Mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı	11002486,46	3033791,54
Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət		
Elan edilmiş dividendlər		
Cəmi kapital	**33159896,83**	**17798574,85**
II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR		
Sığorta ehtiyatları:	**22176422,72**	**17172520,82**
Həyat sığortası sahəsi üzrə :		
Qeyri-həyat sığortası sahəsi üzrə:	22176422,72	17172520,82
Qarşısıalınma tədbirləri fondu		
Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər	**1484417,39**	**1549125,93**
	603956,31	**436518,03**
Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər	**838036,73**	**0**
	0	**0**
Təxirəsalınmış vergi öhdəlikləri	0	0
Kreditor borcları:	0	0
əməyin ödənilməsi üzrə	0	0
büdcə üzrə	0	0
sosial sığorta və təminat üzrə	0	0
digər məcburi ödənişlər üzrə	0	0
asılı təşkilatlar üzrə		**0**
sair kreditorlar	**61200,00**	**0**
Sair uzunmüddətli öhdəliklər:	61200,00	0
gələcək hesabat dövrünün gəlirləri	**0**	**0**
alınmış avanslar	**4062933,02**	**283489,61**
Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər:	4062933,02	283489,61
təkrarsığortaçı üzrə	**0**	**0**
təkrarsığortalı üzrə		**0**
Təsisçi və ya səhmdarlarla hesablaşmalar		
Sair öhdəliklər		
Cəmi uzunmüddətli öhdəliklər	**29226966,17**	**19441654,39**
III . QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR		
Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər	**0**	**2669,94**
Qısamüddətli qiymətləndirilmiş öhdəliklər Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər	**55373,04**	**71481,71**
Kreditor borcları:		
əməyin ödənilməsi üzrə	**514957,81**	**763263,84**
büdcə üzrə		
sosial sığorta və təminat üzrə		23713,36
digər məcburi ödənişlər üzrə		30315,51
asılı təşkilatlar üzrə		
sair kreditorlar	107748,17	33657,68
Sair qısamüddətli öhdəliklər:		
gələcək hesabat dövrünün gəlirləri	407209,64	675577,29
alınmış avanslar	**1289000,00**	
Təsisçi və ya səhmdarlarla hesablaşmalar	1289000,00	**0**
Sair öhdəliklər		**0**
Cəmi qısamüddətli öhdəliklər	**1859330,85**	**837415,49**
CƏMİ ÖHDƏLİKLƏR	**31086297,02**	**20279069,88**
CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR	**64246193,85**	**38077644,73**

Gəlirlər	Məbləğ
Əsas əməliyyat gəliri:	**12630594,40**
birbaşa sığorta üzrə sığorta haqları	10899603,93
təkrarsığorta üzrə təkrarsığorta haqları	453418,67
sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə	1226721,94
təkrarsığortaya verilmiş müqavilələr üzrə komissyon muzdlar üzrə	50849,86
Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət və ya mənfi)	**296309,22**
İnvestisiya gəlirləri üzrə	3154185,05
Subroqasiya gəlirləri	78420,56
Sair gəlirlər	**602922,13**
CƏMİ GƏLİRLƏR	**16762431,36**
Xərclər	
Əsas əməliyyat xərcləri:	**9128248,90**
sığorta ödənişləri və sığorta məbləğləri üzrə	7367714,99
qaytarılan sığorta haqları üzrə	153978,41
tənzimləmə xərcləri	3649,42
təkrarsığortaya verilmiş sığorta haqları üzrə	1518397,54
qarşısıalınma tədbirləri fonduna ayırmalar üzrə	84508,54
sığorta fəaliyyəti üzrə sair xərclər	
İşlərin aparılması xərcləri	**5821119,68**
Sair xərclər	**865833,64**
CƏMİ XƏRCLƏR	**15815202,22**
Maliyyə mənfəəti (zərəri)	**947229,14**
Mənfəətin nizamnamə kapitalına yönəldilən hissəsi	
Vergiqoyulmadan əvvəl mənfəət (zərər)	**947229,14**
Mənfəət vergisi	**189445,83**
Hesabat dövründə xalis mənfəət (zərər)	**757783,31**

	Ödənilmiş nizamnamə kapitalı	Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)	Cəmi kapital
31 dekabr 2020-cu il tarixinə qalıq	20 300 000,00	12 859 896,83	33 159 896,83
Hesabat dövrünün nəticəsi		757 783,31	757 783,31
Ödənilmiş dividentlər		-10 489 640,63	-10 489 640,63
Geri alınmış kapital	-6 293 000,00		-6 293 000,00
31 dekabr 2021-cu il tarixinə qalıq	14 007 000,00	3 128 039,51	17 798 574,85

Büdcəyə və Büdcədənkənar ödənişlər

Göstəricilərin adları	Hesablanmışdır	Faktiki ödənilmişdir
Mənfəətdən vergi	**189445,83**	929040,36
Əlavə dəyər vergisi	228,81	228,81
Gəlir vergisi	7519,87	7519,87
Əmlak vergisi	6752,03	6752,03
Torpaq vergisi	0	0
Aksizlər	0	0
Ödəmə mənbəyində vergi	26761,65	26761,65
Sair vergilər	0	0
Sosial sığorta və təminat	506896,47	638229,01
Məcburi ödənişlər (0,4%)	32879,39	0
İqtisadi sanksiyalar	0	0

Pul vəsaitlərinin hərəkəti haqqında hesabat

A. ƏMƏLİYYAT FƏALİYYƏTLƏRİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ	2020	2021
Yığılmış ümumi sığorta haqqları	12 584 935,69	15 056 471,65
Ötürülmüş sığorta haqqları, təkrarsığortaçının payı	-1 173 092,41	-5 116 935,22
Ümumi sığorta ödənişləri	-5 790 655,99	-7 352 735,63
Sığorta ödənişlərində təkrarsığortaçıların payı	58 496,28	1 229 055,59
Qaytarılmış sığorta və təkrarsığorta haqları	-70 128,47	-18 175,39
Daxil olan subraqasiya haqqları	14 685,63	61 313,17
Ödənilmiş agent mükafatı	-611 291,74	-540 358,53
Əmək haqqı və onunla bağlı xərclər	-3 736 279,23	-2 989 916,90
Ödənilmiş ümumi inzibati xərclər	-1 261 779,10	-1 121 362,08
Avans ödəmələr	-413 995,40	-52 078,69
Ödənilmiş digər məcburi ödəmələr	-909 576,21	-754 155,71
Xarici valyuta ilə əməliyyatlardan xalis realizasiya olunmuş (zərərlər) gəlirlər	693,41	-26 066,82
Sair əməliyyat gəlirləri	21 269,14	6 451,03
Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitləri	**-1 286 718,40**	**-1 618 493,53**
Ödənilmiş vergilər	-86 535,40	-1 231 534,19
Əməliyyat fəaliyyətindən yaranan xalis pul vəsaitləri	**-1 373 253,80**	**-2 850 027,72**
B. İNVESTİSİYA FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ		
Alınmış faizlər şəklində pul vəsaitlərinin daxilolmaları	2 202 015,91	3 820 600,85
İnvestisiya fəaliyyətində olan artma/azalma	9 789 354,19	1 417 660,01
Əsas vəsait və qeyri maddi aktivlərin satışından daxil olmalar		21 150,00
Digər şirkətin nizamnamə kapitalına qoyuluşlar	-312 500,00	0
İnvestisiya siyasəti ilə bağlı xərclər	-256 873,05	-572601,24
İnvestisiya fəaliyyətindən yaranan xalis pul vəsaitləri	**11 421 997,05**	**4 686 809,62**
Ç. MALİYYƏ FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ		
Ödənilmiş dividendlər	-3 500 000,00	-10 489 640,63
Geri alınmış kapital (səhmlər)		-6 293 000,00
Maliyyə fəaliyyətindən daxil olan xalis pul vəsaitləri	**-3 500 000,00**	**-16 782 640,63**
PUL VƏ PUL VƏSAİTLƏ-RİNDƏ XALİS ARTMA/(AZALMA)	**6 548 743,25**	**-14 945 858,73**
PUL VƏ PUL VƏSAİTLƏRİ, ilin əvvəlində	**9 490 787,91**	**16 039 531,16**
PUL VƏ PUL VƏSAİTLƏRİ, ilin sonunda	**16 039 531,16**	**1 093 672,43**

Azərbaycan Respublikası Auditorlar Palatası
"ECONOMİC-CHA"
Məhdud Məsuliyyətli Cəmiyyəti
Bakı şəhəri, F.X.Xoyski küç., 98A
Tel.: (994 12) 465 67 98, (994 51) 700 71 55

Chamber of Audotirs of Azerbaijan Respublik
"ECONOMIC-CHA"
Limited Liability Company
Baku c., F.X.Xoyski, 98A
Tel.: (994 12) 465 67 98, (994 51) 700 71 55

"AZSIĞORTA"

AÇIQ SƏHMDAR CƏMIYYƏTININ TƏSISÇILƏRINƏ:

Müsbət Rəy

Biz "AZSIĞORTA" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra Cəmiyyət) 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyətinə dair hesabatından, məcmu gəlirlərə dair hesabatından, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

Rəy üçün əsaslar

Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə bizim məsuliyyətlərim əlavə olaraq hesabatımın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir.Biz Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Hesab edirik ki, əldə etdiyim audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

Maliyyə hesabatlarına görə rəhbərliyin və Cəmiyyətin idarə edilməsinə məsul şəxslərin məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunda fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetməyə məsul şəxslər Cəmiyyətin maliyyə hesabatlarının təqdim etmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən verilmiş İcazə (Lisenziya) SA/319 03.02.2021-ci il

23 fevral 2022-ci il

Bakı, Azərbaycan Respublikası **F. X. Xoyski 98a**
E-mail : iqtisadci.audit@gmail. com **Tel: (051) 700 71 55**

"ECONOMİK CHA" MMC (İCAZƏ-AT/206 09 yanvar 2020-ci il)
Direktor: **Cəfərova Sevda Teymur qızı**

"Societe de Courtage" Sığorta və Təkrarsığorta Brokeri MMC-nin 31 dekabr 2021-ci il tarixinə BALANS HESABATI

(manatla)

AKTİVLƏR	Hesabat dövrünün əvvəlinə	Hesabat dövrünün sonuna
I. UZUNMÜDDƏTLİ AKTİVLƏR		
Torpaq, tikili və avadanlıq	**2 000,00**	**5 009,7**
Torpaq, tikili və avadanlıqla bağlı məsrəflərin kapitallaşdırılması		
Daşınmaz əmlaka investisiyalar		
Qeyri-maddi aktivlər	**8 725,14**	**7 852,63**
Təxirə salınmış vergi aktivləri		
Uzunmüddətli debitor borcları		
Uzunmüddətli maliyyə aktivləri:		
dövlət qiymətli kağızları		
qeyri-dövlət qiymətli kağızları		
sair maliyyə aktivləri		
İştrak payı metodu ilə uçota alınmış investisiyalar		
Təsisçi və ya səhmdarlarla hesablaşmalar		
Sair aktivlər	**2 031,69**	**1 952,83**
Cəmi uzunmüddətli aktivlər	**12 756,83**	**14 815,16**
II. QISAMÜDDƏTLİ AKTİVLƏR		
Ehtiyatlar		
Debitor borcları:	**90 146,47**	**126 122,47**
birbaşa sığorta üzrə		
təkrarsığorta əməliyyatları üzrə:	**89 453,37**	**119 284,00**
təkrarsığortaçılar üzrə	4 734,57	4 734,57
təkrarsığortalılar üzrə	84 718,80	114 549,43
asılı təşkilatlar üzrə		
büdcə üzrə:		**4 560,30**
iddia tələbləri üzrə		
işçi heyəti üzrə		
sığortalılara verilən borclar üzrə		
sair debitorlar	**693,10**	**2 278,17**
Pul vəsaitləri və onların ekvivalentləri:	**175 860,45**	**161 416,02**
kassa		
hesablaşma hesabı	25 404,58	25 338,14
valyuta hesabı	150 445,16	136 061,25
depozit hesablar		
sair pul vəsaitləri	10,71	16,63
Qısamüddətli maliyyə aktivləri:		
dövlət qiymətli kağızları		
qeyri-dövlət qiymətli kağızları		
sair maliyyə aktivləri		
Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı:		
həyat sığortası sahəsi üzrə		
qeyri-həyat sığortası sahəsi üzrə		
Sair qısamüddətli aktivlər:	**2 263,42**	**1 705,10**
gələcək hesabat dövrlərinin xərcləri	2 263,42	1 596,45
verilmiş avanslar		
təhtəlhesablar		108,65
Sair aktivlər		
Cəmi qısamüddətli aktivlər	**268 270,34**	**289 243,59**
CƏMİ AKTİVLƏR	**281 027,17**	**304 058,75**

KAPİTAL VƏ ÖHDƏLİKLƏR	Hesabat dövrünün əvvəlinə	Hesabat dövrünün sonuna
I. KAPİTAL		
Ödənilmiş nominal (nizamnamə) kapitalı	**155 783,00**	**155 783,00**
Emissiya gəliri		
Geri alınmış kapital (səhmlər)		
Kapital ehtiyatları:	**20 108,56**	**20 108,56**
yenidənqiymətləndirilmə üzrə ehtiyat		
digər kapital ehtiyatları	20 108,56	20 108,56
Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)	**58 128,12**	**43 775,19**
Hesabat dövründə xalis mənfəət (zərər)	8 888,35	(21231,89)
Mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı mənfəət (zərər) üzrə düzəlişlər		6 878,96
Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)	49 239,77	58 128,12
Elan edilmiş dividendlər		
Cəmi kapital	**234 019,68**	**219 666,75**
II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR		
Sığorta ehtiyatları:		
Həyat sığortası sahəsi üzrə		
Qeyri-həyat sığortası sahəsi üzrə		
Qarşısıalınma tədbirləri fondu		
Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər		
Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər		
Təxirəsalınmış vergi öhdəlikləri		
Kreditor borcları:	**7 825,00**	
əməyin ödənilməsi üzrə		
büdcə üzrə	7 825,00	
sosial sığorta və təminat üzrə		
digər məcburi ödənişlər üzrə		
asılı təşkilatlar üzrə		
sair kreditorlar		
Sair uzunmüddətli öhdəliklər:		
gələcək hesabat dövrünün gəlirləri		
alınmış avanslar		
Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər:	**37 684,47**	**83 109,91**
təkrarsığortaçılar üzrə	32 949,90	78 375,34
təkrarsığortalılar üzrə	4 734,57	4 734,57
Təsisçi və ya səhmdarlarla hesablaşmalar		
Sair öhdəliklər		
Cəmi uzunmüddətli öhdəliklər	**45 509,47**	**83 109,91**
III. QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR		
Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər		
Qısamüddətli qiymətləndirilmiş öhdəliklər		
Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər		
Kreditor borcları:	**1 281,93**	**1 282,09**
əməyin ödənilməsi üzrə		
büdcə üzrə		
sosial sığorta və təminat üzrə		
digər məcburi ödənişlər üzrə		
asılı təşkilatlar üzrə		
sair kreditorlar	1 281,93	1 282,09
Sair qısamüddətli öhdəliklər:	**216,09**	
gələcək hesabat dövrünün gəlirləri		
alınmış avanslar	216,09	
Təsisçi və ya səhmdarlarla hesablaşmalar		
Sair öhdəliklər		
Cəmi qısamüddətli öhdəliklər	**1 498,02**	**1 282,09**
CƏMİ ÖHDƏLİKLƏR	**47 007,49**	**84 392,00**
CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR	**281 027,17**	**304 058,75**

GƏLİRLƏR	Məbləğ
Əsas əməliyyat gəlirləri:	
birbaşa sığorta üzrə sığorta haqları	
təkrarsığorta üzrə təkrarsığorta haqları	
sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə	
təkrarsığortaya verilmiş müqavilələr üzrə komisyon muzdlar üzrə	
Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət və ya mənfi)	
İnvestisiya gəlirləri üzrə	
Subroqasiya gəlirləri	
Sair gəlirlər	**217 617,47**
CƏMİ GƏLİRLƏR	**217 617,47**
XƏRCLƏR	
Əsas əməliyyat xərcləri:	
sığorta ödənişləri və sığorta məbləğləri üzrə	
qaytarılan sığorta haqları üzrə	
tənzimləmə xərcləri	
təkrarsığortaya verilmiş sığorta haqları üzrə	
qarşısıalınma tədbirləri fonduna ayırmalar üzrə	
sığorta fəaliyyəti üzrə sair xərclər	
İşlərin aparılması xərcləri	**235 994,06**
Sair xərclər	**2 855,30**
CƏMİ XƏRCLƏR	**238 849,36**
Maliyyə mənfəəti (zərəri)	**(21 231,89)**
Mənfəətin nizamnamə kapitalına yönəldilən hissəsi	
Vergitutmadan əvvəlki mənfəət (zərər)	**(21 231,89)**
Mənfəət vergisi	
Hesabat dövründə xalis mənfəət (zərər)	**(21 231,89)**

BÜDCƏYƏ VƏ BÜDCƏDƏNKƏNAR ÖDƏNİŞLƏR

Göstəricilərin adları	Hesablanmışdır	Faktiki ödənilmişdir
Mənfəətdən vergi		12 624,76
Əlavə dəyər vergisi		
Gəlir vergisi		
Əmlak vergisi	35,05	20,00
Torpaq vergisi		
Aksizlər		
Ödəmə mənbəyində vergi	25 163,00	24 938,59
Sair vergilər		
Sosial sığorta və təminat	43 631,78	43 528,06
Məcburi ödənişlər		
İqtisadi sanksiyalar		

TRT Haber: Azərbaycan qazı Türkiyənin geostrateji gücünü artırır

Türkiyənin TRT Haber telekanalı Azərbaycanın karbohidrogen ehtiyatlarının Avropanın enerji təhlükəsizliyinin təmin edilməsindəki əvəzedilməz rolunu xarakterizə edən xüsusi reportaj yayıb. Reportajın əsas süjeti TANAP qaz ixrac xəttinin əhəmiyyətinə həsr olunub. Diqqətə çatdırılıb ki, Azərbaycan qazı Türkiyənin geostrateji gücünü artırır. Faktlar və statistik rəqəmlər əsasında TANAP-ın daşıyıcılıq gücü, bu xəttin təhlükəsiz fəaliyyətinə dair mühüm məlumatlar tamaşaçılara çatdırılıb.

NOVRUZ ADƏTLƏRİ

Novruza bax, yaza bax
Bir əriyən buza bax
Sellər axır şırhaşır
Çöllər olur yamyaşıl...

Bu kiçik dörd misrada Novruzun bu qədər böyük şadyanalıq, sevinc və təmtəraqla qeyd olunmasının, toy-bayramla qarşılanmasının səbəblərindən bəzilərini tapmaq mümkündür. Axı ölkəmizə yaz gəlir, ağaclar çiçək açır, torpaq canlanır... Böyükdən-kiçiyə hər kəs bu bahar ətirli bayramı qarşılamağa hazırlaşır.

Orta əsr Şərq mənbələrində Novruz bayramı ilə bağlı bəzi rəvayətlərə də rast gəlinir. Ömər Xəyyamın "Novruznamə" əsərində bu bayramın tarixi ilə bağlı qeyd olunur ki, "Novruzun yaranmasının birinci səbəbi odur ki, həmin gündə Günəş dövrə vurub, 365 gün 6 saatdan sonra öz yerinə qayıdır. Əfsanəvi İran hökmdarlarından olan Cəmşid bu günü müəyyənləşdirdiyinə görə, onu yeni gün - Novruz adlandırıb və bayram edib. Digər bir rəvayətdə qeyd olunur ki, Cəmşid bir sıra şəhərlər gəzərək, nəhayət, Azərbaycana gələndə taxta çıxıb və camaat onu çiyinlərində aparıb. Günəş o taxta düşüb, hər yan nura qərq olub. Camaat bu günü uğurun başlanğıcı hesab edərək, onu Novruz - Yeni gün adlandırıb.

2009-cu ildə Novruz bayramı YUNESKO tərəfindən qeyri-maddi mədəni irs siyahısına daxil edilmiş, 2010-cu ildə isə BMT Baş Assambleyasının 64-cü sessiyasının iclasında mart ayının 21-i "Beynəlxalq Novruz Günü" elan olunmuşdur.

Bu sevilən bayramın tarixi qədər qədim olan, milli ruh və yaddaşımızı bütün zənginliyi ilə əks etdirən adət-ənənələri, əsrdən-əsrə, nəsildən-nəslə keçərək yaşayan inancları da var. Novruz bayramının əsas yaradıcı və aparıcı qüvvəsi Azərbaycan xalqı hesab olunur, bu bayrama xas olan adət-ənənə və mərasimlərə isə ən incə özəlliklərinə qədər əsasən ölkəmizdə əməl edilir. Bayramda keçəl qış, kosa yazı təmsil edir. Yeni paltar geyinmək təmizlik, küsülülərin barışması birlik, tonqaldan tullanma ağırlıqdan qurtulma, yumurta döyüşdürülməsi qış və yazdan ibarət iki dünyanın toqquşması, səməni cücərtmək təbiətin canlanması, qulaq falı yeniliklər eşitməyə ehtiyac mənasını ifadə edir. Novruzun xalqımızın milli birlik və adət-ənənələrin vahidliyi ideyasında əks olunmasında bayram şirniyyatlarının da öz rolu var, onlar da bir sıra rəmzi mənalar ifadə edirlər. Burada insana həyat verən dörd ünsürün əlamətləri vardır: paxlava oyanmanı, sərt qış yuxusundan yaşamağa açılan gözü ifadə edir, torpaq elementidir. Şəkərbura ayın simvoludur. Kənarındakı və üzərindəki naxışlar isə ayın şüalarını xatırladır, havanı təmsil edir. Qoğal od elementidir və günəşin simvoludur, istiliyin rəmzi olaraq Novruz süfrələrini bəzəyir. Şəkərçörək isə suyu təmsil edir və torpaq üzərindəki gölə bənzədilir.

Novruz şirniyyatları qədər bayram süfrəsindəki yeməklər də bir sıra inanclarla bağlıdır. Hər süfrədə plovun yer alması düyünün, çəltiyin xalqımızın təsərrüfat həyatındakı əvəzsiz rolu və çəkisi ilə əlaqədardır. Bayram süfrəsinə "S" hərfi ilə başlayan 7 növ qidanın qoyulması da Novruzla bağlı inanclardandır.

Novruzun qarşılanmasına dörd həftə öncə başlanılır və dörd ünsürün: su, hava, od, torpaq adı ilə çərşənbələr qeyd olunur. Çərşənbələrdə və bayram axşamlarında tonqaldan tullanar, "ağırlığım - uğurluğum odda yansın", - deyərlər. Bayram tonqalı ətrafında birlik rəmzi olan yallı gedər, rəqs edərlər.

Bayram xonçalarına rəngarənlik verən al-əlvan yumurtalar həyatın rəngli çalarlarda olması arzusunu əks etdirir. Yumurta döyüşdürmək də çox maraqlıdır. Oyunun nəticəsində tərəflərdən biri digərinin tələblərini yerinə yetirməli olur.

Bayramda qapıya papaq atılar, atılan papaq da boş qaytarılmaz. Bayram xonçasında ailə üzvlərinin sayı qədər şam yandırarlar.

Bayramda qulaq falına çıxılar, niyyət tutub qonşu qapının arxasında ilk söz eşidilənədək qulaq asılar. Əgər gizlin dinlənən evdən xoş söhbət eşidilərsə, bu, arzunun yerinə yetəcəyinə işarə edər.

Bayramın ən sevilən adətlərindən biri isə ünsiyyətin, mehribanlığın qorunması, xəstələrin ziyarət olunması, yaşda böyük olanlarla görüşmək, bayramlaşmaqdır. Hər gününüz Novruz kimi olsun.

BAYRAMINIZ MÜBARƏK!

Hazırladı:
Mətanət Hüseynova

"Xəmsə" Sığorta və Təkrarsığorta Brokeri MMC-nin 31 dekabr 2021-ci il tarixinə BALANS HESABATI

(manatla)

AKTİVLƏR	Hesabat dövrünün sonuna
I. UZUNMÜDDƏTLİ AKTİVLƏR	
Torpaq, tikili və avadanlıq	**15 560,18**
Torpaq, tikili və avadanlıqla bağlı məsrəflərin kapitallaşdırılması	
Daşınmaz əmlaka investisiyalar	
Qeyri-maddi aktivlər	**10 476,00**
Təxirə salınmış vergi aktivləri	
Uzunmüddətli debitor borcları	
Uzunmüddətli maliyyə aktivləri:	
dövlət qiymətli kağızları	
qeyri-dövlət qiymətli kağızları	
sair maliyyə aktivləri	
İştirak payı metodu ilə uçota alınmış investisiyalar	
Təsisçi və ya səhmdarlarla hesablaşmalar	
Sair aktivlər	**10,40**
Cəmi uzunmüddətli aktivlər	**26 046,58**
II. QISAMÜDDƏTLİ AKTİVLƏR	
Ehtiyatlar	
Debitor borcları:	**78 333,21**
birbaşa sığorta üzrə	
təkrarsığorta əməliyyatları üzrə:	**75 866,73**
təkrarsığortaçılar üzrə	
təkrarsığortalılar üzrə	75 866,73
asılı təşkilatlar üzrə	
büdcə üzrə:	
iddia tələbləri üzrə	
işçi heyəti üzrə	
sığortalılara verilən borclar üzrə	
sair debitorlar	**2 466,48**
Pul vəsaitləri və onların ekvivalentləri:	**6 226,23**
kassa	
hesablaşma hesabı	6 176,83
valyuta hesabı	49,40
depozit hesablar	
sair pul vəsaitləri	
Qısamüddətli maliyyə aktivləri:	
dövlət qiymətli kağızları	
qeyri-dövlət qiymətli kağızları	
sair maliyyə aktivləri	
Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı:	
həyat sığortası sahəsi üzrə	
qeyri-həyat sığortası sahəsi üzrə	
Sair qısamüddətli aktivlər:	**883,77**
gələcək hesabat dövrlərinin xərcləri	883,77
verilmiş avanslar	
təhtəlhesablar	
Sair aktivlər	
Cəmi qısamüddətli aktivlər	**85 443,21**
CƏMİ AKTİVLƏR	**111 489,79**

KAPİTAL VƏ ÖHDƏLİKLƏR	Hesabat dövrünün sonuna
I. KAPİTAL	
Ödənilmiş nominal (nizamnamə) kapitalı	**1 000,00**
Emissiya gəliri	
Geri alınmış kapital (səhmlər)	
Kapital ehtiyatları:	
yenidənqiymətləndirilmə üzrə ehtiyat	
digər kapital ehtiyatları	
Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)	**(92 307,14)**
Hesabat dövründə xalis mənfəət (zərər)	(92 307,14)
Mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı mənfəət (zərər) üzrə düzəlişlər	
Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)	
Elan edilmiş dividendlər	
Cəmi kapital	**(91 307,14)**
II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR	
Sığorta ehtiyatları:	
Həyat sığortası sahəsi üzrə	
Qeyri-həyat sığortası sahəsi üzrə	
Qarşısıalınma tədbirləri fondu	
Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər	
Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər	
Təxirəsalınmış vergi öhdəlikləri	
Kreditor borcları:	**183,74**
əməyin ödənilməsi üzrə	
büdcə üzrə	
sosial sığorta və təminat üzrə	
digər məcburi ödənişlər üzrə	
asılı təşkilatlar üzrə	
sair kreditorlar	183,74
Sair uzunmüddətli öhdəliklər:	
gələcək hesabat dövrünün gəlirləri	
alınmış avanslar	
Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər:	**60 742,19**
təkrarsığortaçılar üzrə	60 742,19
təkrarsığortalılar üzrə	
Təsisçi və ya səhmdarlarla hesablaşmalar	
Sair öhdəliklər	**141 871,00**
Cəmi uzunmüddətli öhdəliklər	**202 796,93**
III. QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR	
Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər	
Qısamüddətli qiymətləndirilmiş öhdəliklər	
Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər	
Kreditor borcları:	
əməyin ödənilməsi üzrə	
büdcə üzrə	
sosial sığorta və təminat üzrə	
digər məcburi ödənişlər üzrə	
asılı təşkilatlar üzrə	
sair kreditorlar	
Sair qısamüddətli öhdəliklər:	
gələcək hesabat dövrünün gəlirləri	
alınmış avanslar	
Təsisçi və ya səhmdarlarla hesablaşmalar	
Sair öhdəliklər	
Cəmi qısamüddətli öhdəliklər	
CƏMİ ÖHDƏLİKLƏR	**202 796,93**
CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR	**111 489,79**

GƏLİRLƏR	Məbləğ (manat)
Əsas əməliyyat gəliri:	
birbaşa sığorta üzrə sığorta haqları	
təkrarsığorta üzrə təkrarsığorta haqları	
sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə	
təkrarsığortaya verilmiş müqavilələr üzrə komisyon muzdlar üzrə	
Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət və ya mənfi)	
İnvestisiya gəlirləri üzrə	
Subroqasiya gəlirləri	
Sair gəlirlər	**18 980,04**
CƏMİ GƏLİRLƏR	**18 980,04**
XƏRCLƏR	
Əsas əməliyyat xərcləri:	
sığorta ödənişləri və sığorta məbləğləri üzrə	
qaytarılan sığorta haqları üzrə	
tənzimləmə xərcləri	
təkrarsığortaya verilmiş sığorta haqları üzrə	
qarşısıalınma tədbirləri fonduna ayırmalar üzrə	
sığorta fəaliyyəti üzrə sair xərclər	
İşlərin aparılması xərcləri	**111 254,18**
Sair xərclər	**33,00**
CƏMİ XƏRCLƏR	**111 287,18**
Maliyyə mənfəəti (zərəri)	**(92 307,14)**
Mənfəətin nizamnamə kapitalına yönəldilən hissəsi	
Vergitutmadan əvvəlki mənfəət (zərər)	**(92 307,14)**
Mənfəət vergisi	
Hesabat dövründə xalis mənfəət (zərər)	**(92 307,14)**

BÜDCƏYƏ VƏ BÜDCƏDƏNKƏNAR ÖDƏNİŞLƏR

Göstəricilərin adları	Hesablanmışdır	Faktiki ödənilmişdir
Mənfəətdən vergi		
Əlavə dəyər vergisi		
Gəlir vergisi		
Əmlak vergisi		
Torpaq vergisi		
Aksizlər		
Ödəmə mənbəyində vergi	4 017,94	4 017,94
Sair vergilər		
Sosial sığorta və təminat	11 562,40	11 562,40
İqtisadi sanksiyalar		

"Uşaq Qaynar Xətt" xidməti Fövqəladə Hallar Nazirliyi ilə əməkdaşlığa başladı

Azercell-in dəstəklədiyi xidmət uşaqları bədbəxt hadisələrdən qorumaq üçün yeni imkanlar açır.

"Azercell Telekom" MMC-nin dəstəyi ilə yaradılan və fəaliyyət göstərən "Azərbaycan Uşaq Qaynar Xətt" (AUQX) xidmətinin əməkdaşlıq etdiyi dövlət qurumları sırasına Fövqəladə Hallar Nazirliyi (FHN) də əlavə olundu. Mart ayından başlayan yeni əməkdaşlıq çərçivəsində Fövqəladə Hallar Nazirliyinin "112" xidmətinə uşaq və yeniyetmələr tərəfindən daxil olan müraciətlər birbaşa olaraq "Uşaq Qaynar Xətti"nə yönləndiriləcək. Fövqəladə Hallar Nazirliyinin "112" qaynar xəttinə köməksiz halda olan insanlar, o cümlədən uşaq və yaşlılar da müraciət edirlər. Odur ki, yeni əməkdaşlıq ağır vəziyyətlə üzləşən azyaşlılara kömək etmək, baş verə biləcək hər hansı bədbəxt hadisənin qarşısını almaq, psixoloji basqı və zorakılıqla üzləşən yeniyetmələrə dərhal peşəkar yardımın göstərilməsi baxımından çox əhəmiyyətlidir.

Qeyd edək ki, Fövqəladə Hallar Nazirliyinin "112" qaynar xəttinə günün istənilən vaxtı sabit şəbəkə telefonlarından (ATS), bütün növ taksofonlardan və mobil operatorlardan ödənişsiz olaraq zənglər qəbul olunur.

"Azərbaycan Uşaq Qaynar Xətt" xidməti hər il müxtəlif çətinliklərlə üzləşən minlərlə uşaq və yeniyetməyə təmənnasız yardım edir. Hüquqları pozulan uşaqları psixoloji və fiziki zədələrdən qorumaq məqsədi daşıyan bu mərkəz 11 ildən artıqdır ki, "Ümidli

Gələcək" Sosial Təşəbbüslər İctimai Birliyi, Azercell Telekom, UNİCEF Azərbaycan, həmçinin uşaq problemləri sahəsində çalışan dövlət qurumları ilə birgə əməkdaşlıq sayəsində gərgin işini davam etdirir. Bu müddətdə AUQX 53.000-dən çox müxtəlif xarakterli müraciət cavablayıb. Mərkəzə daxil olan bütün müraciətlər məsləhətçi-hüquqşünas, psixoloq və sosial işçilər tərəfindən dinlənilir. Zəng edənlərə lazımi məsləhətlər verilir, bəzi hallarda isə onlar müvafiq qurumlara yönləndirilir. Zorakılığa məruz qalmış uşaqlar və onların ailə üzvlərinə mərkəzin peşəkar əməkdaşları tərəfindən təcili psixoloji yardım da göstərilir.

"Azərbaycan Uşaq Qaynar Xətti" xidmətinə 24 saat xidmət göstərən 116111 qısa nömrəsi, +994 50 680 22 80, +994 51 580 22 80, +994 51 880 11 80, +994 51 880 22 80 mobil nömrələri, ushaqqaynarxetti@gmail.com elektron poçt ünvanına, facebook və instagram sosial şəbəkələri, mərkəzin saytındakı canlı çat və "uşaqqaynarxetti" mobil əlavəsi vasitəsilə müraciət etmək olar.

"Bakcell"in yeni konsept mağazası Bərdədə

Bərdə şəhərində "Bakcell"in yeni konsept mağazası açılıb. Müştərilərin rahatlığını təmin etmək məqsədilə yeni mağaza tam olaraq müştəri yönümlü yanaşma üzərində qurulub.

Bərdə şəhəri, Ü.Hacıbəyli küçəsində (Hərbi Polis idarəsi ilə üzbəüz) yerləşən mağaza özündə müştəri xidməti və satış funksiyasını birləşdirir. Burada Bərdə sakinlərinə şirkətin məhsul və xidmətlərinin tam çeşidi ilə yanaşı, mobil nömrələr və aksessuarlar təklif edilir.

Qeyd edək ki, bu, "Bakcell"in Azərbaycanın regionlarında açılmış ikinci konsept mağazasıdır. Şirkət bu ilin sonunadək bir neçə yeni mağazanın açılışını planlaşdırıb.

2021-ci ildə Bakcell şəbəkəsi növbəti dəfə Ookla® tərəfindən "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" adına layiq görülüb.

Bu gün Bakcell şəbəkəsi 9 minə yaxın baza stansiya sayəsində Azərbaycan əhalisinin 99,9%-ni, ölkə ərazisinin isə 92,6%-ni əhatə edir.

Azercell - "Sənə yaxın gələcək"

Lider mobil operator 2021-ci ildəki fəaliyyət dövrünün hesabatını açıqlayır.

Azərbaycanda ən son texnoloji trendləri tətbiq edərək, rəqəmsallaşmanı hər bir istifadəçisinin gündəlik həyat tərzinə çevirməyə can atan "Azercell Telekom" MMC 2021-ci ildə 25 yaşını qeyd etdi.

Azərbaycan vətəndaşlarının ən çox üstünlük verdiyi və 5 milyon abunəçini ətrafına toplayan Azercell-in yenilənmiş strategiyası şirkəti "Bağlantını asanlaşdırır, həyatı daha dolğun edirik!" məqsədinə doğru aparır. Şirkət brendinin yeni şüarı - "Sənə yaxın gələcək" innovativ rəqəmsal həllər vasitəsilə insanların həyat keyfiyyətini yaxşılaşdırmaq, təhlükəsizliyi artırmaq və dünyaya inteqrasiya olunmaq kimi ideyaları özündə əks etdirir.

Strateji fəaliyyətinin yeni dövrünü elan etmiş lider mobil operator 2021-ci ili məhsuldar və gərgin fəaliyyət, yeni təşəbbüslər və əlamətdar yeniliklərlə başa vurdu. Uzun sürən pandemiyanın səbəb olduğu qlobal iqtisadi resessiyaya baxmayaraq, "Azercell Telekom" ötən ili ciddi nailiyyətlərlə başa vurmağı bacardı. 2021-ci ildə ölkənin mobil kommunikasiya bazarında 51,8% faiz pay sahibi olan Azərbaycanın qeyri-neft sektorunun ən böyük vergi ödəyicilərindən biri olaraq, 2021-ci ildə dövlət büdcəsinə 122.7 milyon AZN, 25 il ərzində isə 2.1 milyard AZN-dən çox vergi ödəyib. Mobil operator Azərbaycanda telekommunikasiyanın inkişafına 2021-ci ildə 44.7 milyon ABŞ dolları, 1996-2021-ci illər ərzində isə 1.7 milyard ABŞ dollarından artıq həcmdə sərmayə yatırıb.

Hazırda şirkətin coğrafi əhatə dairəsi ölkəmizin işğaldan azad olunmuş əraziləri də daxil olmaqla 94,15% əhali əhatəsi isə 98,70% təşkil edir. "Azercell Telekom" il ərzində ölkəmizdə 4G şəbəkəsinin təkmilləşdirilməsi layihəsini uğurla davam etdirib. Ötən il boyu Azercell-in 4G şəbəkəsinin əhali üzrə əhatəsi dairəsi 85,8%-ə, coğrafi əhatəsi isə 74,5%-ə qədər yüksəlib. 2021-ci ilin yekunlarına əsasən Azercell-in 4G şəbəkəsi üzərində çalışan stansiyaların ümumi sayı 3000-ə çatdırılıb.

Azercell Bakı metropolitenində rahat və kəsintisiz bağlantı istiqamətində apardığı işləri yekunlaşdıraraq, iki il davam edən layihə nəticəsində metropolitenin bütün 24 stansiyası və tunellərini 4G şəbəkəsi ilə əhatə edib. Beləliklə, Azercell abunəçiləri, hətta qatarın hərəkətdə olduğu zaman da dayanmadan mobil internet xidmətlərindən yararlanaraq dostları ilə yazışa, videolar izləyə və musiqi dinləyə bilərlər.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin azad edilmiş ərazilərdə "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyalarının tətbiqinin sürətləndirilməsinə dair sərəncamına uyğun olaraq Azercell şirkəti işğaldan azad olunmuş torpaqlarda öz 4G şəbəkəsini sürətlə genişləndirməklə yanaşı, "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyaları üçün əşyaların interneti (IoT) texnologiyasına əsaslanmış, daha az enerji sərfiyyatlı şəbəkə infrastrukturunun sınaqlarını uğurla həyata keçirən ilk operator olub.

İşğaldan azad edilən ərazilərdə aparılan quruculuq işlərinə dəstək məqsədilə Azercell şirkəti öz abunəçilərinə "Kabinetim" tətbiqi üzərindən Qarabağ Dirçəliş Fonduna daha rahat və sürətli formada ianə köçürmək imkanı yaradıb. Bundan əlavə, həmin ərazilərdə abunəçilərə ilk müştəri xidmətləri göstərən də məhz Azercell olub. Şirkətin Mobil Müştəri Xidmətləri komandasının Şuşaya səfəri zamanı 200-ə yaxın abunəçiyə yerində xidmət göstərilib, 50-dən çox müxtəlif müştəri əməliyyatı həyata keçirilib.

2021-ci ildə davam edən sosial təcrid şəraitinə baxmayaraq, Azercell-in müxtəlif xidmət kanalları hər zaman olduğu kimi müştəri müraciətlərini daha intensiv və operativ cavablama sistemini tətbiq edərək, bu sahədə yüksək göstəricilərə nail oldu. Beləliklə, 2021-ci ildə Azercell-in Telefon Mərkəzinə ümumilikdə təxminən 3 milyondan çox zəng daxil olub, bunlardan 97,5%-i cavablandırılıb, onlayn müştəri xidmətləri üzərindən 818,136 sayda sorğu daxil olub və bunların 96%-i cavablandırılıb. Azercell şirkətinin il ərzində rəsmi Facebook, Instagram, Twitter, Youtube və Linkedin səhifələrindən toplam 479 mindən çox müraciət daxil olaraq, əməkdaşlar tərəfindən cavablandırılıb. Bundan əlavə, 2021-ci il ərzində şirkətin Ön Masa, Azercell Ekspres, Azercell Eksklüziv ofislərində, eləcə də Mobil Müştəri Xidmətləri vasitəsilə təxminən 800 mindən çox abunəçiyə üz-üzə xidmət göstərilib.

Ötən il istifadəçilərin uzun müddət səbirsizliklə gözlədiyi yeni "Qaliblərin seçimi - 010 prefiksli nömrələr" də Azərbaycanın mobil rabitə bazarına çıxarılıb.

Vətən müharibəsindəki şanlı qələbəni bizə yaşadanlara sonsuz hörmətin təcəssümü kimi müharibə veteranı statusuna malik olan bütün vətəndaşlara Azercell-dən yeni "Veteran Tarifi" təqdim olunub.

Azercell 2021-ci ildə korporativ abunəçiləri üçün bir sıra yeniliklər həyata keçirib. Belə ki, şirkət ölkənin mobil rabitə bazarında ilk dəfə olaraq Əşyaların İnterneti (IoT) texnologiyasına əsaslanan "Biznesim Nəqliyyat" həllini təqdim edib . Eyni zamanda, "Biznesim Loyallıq" proqram çərçivəsində Azercell-in korporativ müştəriləri arasında populyarlıq qazanan "Biznesim Klubu" istifadəyə verilib. Bundan əlavə, korporativ müştərilər üçün "Liderlik" və "Müştəriyə yönəlik xidmət mədəniyyəti" mövzularına həsr edilmiş vebinarlar təşkil olunub. "Biznesim Veb" həlli, eləcə də sürətli internetdən faydalanmaq imkanı verən "GigaMax" limitsiz internet paketləri istifadəyə verilib.

2021-ci ilə Azercell öz istifadəçilərinin gündəlik iş proseslərini daha rahat və sürətli etmək məqsədilə "BirBank" mobil tətbiqi daxilində "Mobil nömrənin balansının avtomatik artırılması" xidmətini istifadəyə verib. iPhone 13, iPhone 13 Pro və iPhone 13 Mini smartfonları, son model Wi-Fi cihazı əldə edən müştərilərə hədiyyə internet paketləri təqdim olunub.

Abunəçilərinin rəqəmsal həllərdən istifadəsini daha asan etmək məqsədilə ötən il "Kabinetim", "ABB Mobile", "Umico" platformaları üzərindən xidmətlərin çeşidi də genişləndirilib.

2021-ci ildə Azercell-in həyata keçirdiyi Korporativ Sosial Məsuliyyət layihələrinə ümumilikdə 257 min ABŞ dollarından artıq vəsait sərf edilib ki, bu göstərici 25 il ərzində 22 milyon dolları keçib.

2021-ci il ərzində Milli Olimpiya Komitəsinin, Milli Olimpiya və Milli Paralimpiya Komandalarının məğrur tərəfdaşı olan "Azercell Telekom" Azərbaycan idmançılarının XXXII Yay Olimpiya Oyunları və XVI Yay Paralimpiya Oyunlarında iştirakını dəstəkləyib.

Azərbaycan Respublikasının Təhsil Nazirliyinin məğrur tərəfdaşı olan "Azercell Telekom" MMC-nin dəstəyilə informatika üzrə beynəlxalq olimpiadalara hazırlaşan məktəblilərimiz ötən il ərzində dəfələrlə mötəbər bilik yarışlarında yüksək nəticələr əldə ediblər, beynəlxalq olimpiadalarda ölkəmizi uğurla təmsil edərək 10 medal qazanıblar.

Mədəni irsə hörmətlə yanaşan Azercell şirkəti Nizami Gəncəvinin 880 illik yubileyi münasibətilə dahi Azərbaycan şairinin əsərlərinə aid 100-dən çox parçanı audiokitab formatında tərtib edib. Əsərlər müxtəlif dillərdə səsləndirilərək, "Bookmate" əlavəsinə yüklənilib. Həmçinin, N.Gəncəvinin iki məşhur əsəri komiks janrında hazırlanıb. Ötən il həm də xalqımızın qəhrəmanlıq tarixini təcəssüm etdirən "Koroğlu" dastanı fərqli və rəqəmsal formatda hazırlanaraq, "Bookmate" mobil tətbiqinə yüklənilib.

11 il öncə Azercell-in dəstəyilə yaradılan Azərbaycan Uşaq Qaynar Xətt Xidməti karantin dövründə də fəaliyyətini davam etdirib və ümumilikdə 5300-ə yaxın uşağa psixoloji yardım göstərib.

Azercell-in Səyyar Diş və Göz Klinikaları 2021-ci ilin ilk aylarında bütün təhlükəsizlik və gigiyena qaydalarına riayət olunmaqla 400-dən çox aztəminatlı, xüsusi qayğıya ehtiyacı olan vətəndaşlarımıza xidmət göstərib.

Şirkətin həyata keçirdiyi "Kiçik Ürəklərdə Böyük Xatirələr" layihəsi çərçivəsində 300-ə yaxın şəhid övladı və onların anaları xüsusi reabilitasiya proqramına cəlb olunub.

Azercell şirkətinin öz əməkdaşlarından ibarət "Azercell könüllüləri" xeyriyyə qrupunun təşəbbüsü ilə Azərbaycanın bütün bölgələrini əhatə edən "Novruz payı", "Yeni ildə könüllülərdən hədiyyə ilə" aksiyaları çərçivəsində Vətən müharibəsi şəhidlərinin ailələrinə, döyüşlərdə yaralanmış qazilərə və onların övladlarına bayram sovqatları və kuponlar təqdim olunub.

Korporativ Sosial Məsuliyyət siyasətinin bir istiqaməti kimi Azercell media nümayəndələrinin rəqəmsal platformalarında və beynəlxalq xəbər mənbələrilə rahat işləmələri üçün ingilis dili kursları təşkil edir. 13 ildən çoxdur davam edən layihədə ötən il 70 KİV nümayəndəsi iştirak edib.

Ölkədə peşəkar kadrların inkişaf etdirilməsinə hər zaman xüsusi önəm verən Azercell 2021-ci ildə İnsan kapitalının inkişafına təxminən 879 min ABŞ dolları, 1996-2020-ci illər ərzində isə 26.8 milyon ABŞ dolları həcmində vəsait sərf edib.

2021-ci il ərzində Azercell Akademiyası Tədris Mərkəzinin 6 biznes məktəbi tərəfindən ölkədə fəaliyyət göstərən müxtəlif qurum və şirkətlər üçün 211 xarici təlim, 80 şirkətdaxili təlim keçirilib. Bu təlimlərə 2316 iştirakçı qatılıb.

Azercell şirkətinin Tələbə Təqaüdü və Tələbə Təcrübə proqramları layihəsində tətbiq olunan son yenilik ondan ibarət olub ki, 2021-ci ildə Azercell tələbə adını qazanmış şəhidlərin həyat yoldaşları və övladlarına da təqaüd ayrılıb.

Pandemiya dönəmində "Microsoft Teams" platforması üzərindən distant təhsil alan şagird və tələbələr, eləcə də distant iş rejimində çalışan müəllimlər üçün Azercell "Təhsil" internet paketini istifadəyə verib.

Azercell ötən il "Qadınların İKT sahəsində rolu" mövzusunda Clubhouse platforması üzərindən onlayn müzakirələr təşkil edib.

Fəaliyyət dövrü ərzində tətbiq etdiyi şəffaflıq strategiyasının nəticəsi olaraq ölkənin lider mobil operatoru "Azercell Telekom" 2021-ci ildə növbəti dəfə ISO 37001:2016 "Antikorrupsiya idarəetmə sistemi" standartlarına uyğunluq sertifikatı ilə təltif olunub. ABŞ-ın ən böyük akkreditasiya qurumu olan ANAB (ANSI National Accreditation Board) tərəfindən akkreditə olunmuş Türkiyənin Denetik Uluslararası Belgelendirme ve Gözetim Hizmetleri şirkətinin keçirdiyi sertifikatlaşdırma auditi Azercell-in antikorrupsiya proqramının bütün tələblərə cavab verdiyini bir daha təsdiq edib.

Şirkətin müxtəlif istiqamətlərdə gərgin fəaliyyəti yerli və beynəlxalq ictimaiyyətin diqqətindən kənarda qalmayıb. Azercell-in təşəbbüsü ilə hazırlanan və sosial mediada milyonlarla baxış toplayan #QadınDediyin layihəsi Şərqi Avropanın ən böyük yaradıcı festivallarından biri olan "White Square"də "For Bravery" özəl mükafatını alıb.

Ötən il Beynəlxalq Biznes Mükafatları nüfuzlu STEVIE mükafatının qaliblərinə təqdimat mərasimi keçirib. Azərbaycanın lider mobil operatoru "Azercell Telekom"-in nailiyyətləri STEVIE Beynəlxalq Biznes Mükafatlarının münsiflər heyəti tərəfindən yüksək qiymətləndirilib. Xatırladaq ki, "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyası üçün Əşyaların İnterneti (IoT) texnologiyaları əsasında az enerji tələbatlı sensorların tətbiqi üzrə hazırlıq səviyyəsinə görə "İlin ən innovativ şirkəti" nominasiyasında Qızıl mükafata layiq görülən Azercell 5 milyondan çox olan abunəçisinə etimad və seçiminə görə təşəkkür edir!

Qarabağın görkəmli simaları

Bülbül (1897-1961)

Bülbül peşəkar vokal məktəbimizin banisi, təkrarolunmaz ifası ilə milyonlarla dinləyicinin sevimlisi, nəhəng səs diapazonuna malik dahi musiqiçi, musiqişünas-alim, pedaqoq, fədakar insan, novator kimi adı musiqi tariximizdə qalacaq əbədiyaşar sənətkarlarımızdan biridir. Azərbaycan musiqi sənətinin inkişafında böyük xidmətləri olmuş Bülbül həm də mütərəqqi ideyaların və yeniliklərin təşəbbüskarı və təbliğatçısı kimi tanınmışdır.

Bülbül İtaliyada peşəkar təhsil almış ilk Şərq vokalçısıdır. O, spesifik Şərq ifa tərzindən Avropa vokal məktəbinə keçmiş, Azərbaycan milli ifa sənətinin ən yaxşı üsullarını rus və Avropa məktəbi ilə sintez etmiş, Azərbaycanda yeni vokal məktəbi yaratmışdır. Bu məktəb təkcə Azərbaycan və digər milli respublikalar üçün əhəmiyyətli olması ilə bərabər, həm də Yaxın və Orta Şərq ölkələrinə çox güclü təsir etmişdir.

Bülbül (əsl adı - Murtuza Məşədi Rza oğlu Məmmədov) 22 iyun 1897-ci ildə Şuşa yaxınlığında, hazırda Xankəndinin cənub ərazisi olan Xanbağı adlanan yerdə anadan olmuşdur. 1907-ci ildə o, Şuşa mollaxanasında musiqi təhsili almağa başlamışdır. 1909-cu ildə Bülbül Gəncəyə köçür. Burada gənc xanəndənin şöhrəti başlayır. 1911-ci ildə onu Tiflisə, ictimai yığıncaqlar keçirilən yay binasında çıxışa dəvət edirlər. Burada o, məşhur gürcü müğənnisi ilə tanış olur. Onun səhnə fəaliyyətinə başlaması 1916-cı ilə təsadüf edir.

1920-ci ildən Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının (o zamanlar Birləşmiş Dövlət Teatrı opera truppası) solisti olmuşdur. Fəaliyyətinin ilk illərində Üzeyir Hacıbəyovun "Leyli və Məcnun" (İbn Salam), "Əsli və Kərəm" (Kərəm), Z.Hacıbəyovun "Aşıq Qərib" (Qərib) operasında oynamışdır. 1927-ci ildə Bakı Konservatoriyasını bitirmişdir. Təhsilini davam etdirmək üçün dövlət xətti ilə İtaliyanın Milan şəhərinə getmişdir. 1931-ci ildə Milan Konservatoriyasını (Cüzeppe Anselmi, Delliponti və R.Qraninin sinfini) bitirib, Azərbaycana geri dönmüş və Azərbaycan Dövlət Konservatoriyasında dərs deməyə başlamışdır.

1932-ci ildə onun təşəbbüsü ilə Azərbaycan Dövlət Konservatoriyası nəzdində Azərbaycan xalq musiqisini öyrənən Elmi Tədqiqat Musiqi Kabineti yaradılmışdır. Elmi Tədqiqat Musiqi Kabineti Azərbaycan musiqisinin toplanması, tədqiqi və işlənməsi ilə məşğul olmuşdur. Elmi Tədqiqat Musiqi Kabinetinin bazasında Azərbaycan Elmlər Akademiyasının İncəsənət və Memarlıq İnstitutu yaranmışdır. 1945-ci ildən etibarən Azərbaycan xalq musiqisinin tədqiqi ilə Azərbaycan Elmlər Akademiyasının İncəsənət İnstitutu məşğul olmağa başlamışdır.

1937-ci ildə Azərbaycan Dövlət Opera və Balet Teatrının səhnəsində Üzeyir Hacıbəyovun «Koroğlu» operası tamaşaya qoyulmuşdur. Koroğlu rolunun ilk ifaçısı görkəmli Azərbaycan müğənnisi Bülbül olmuşdur. O, demək olar ki, ömrünün sonuna kimi – 25 ilə yaxın bir müddətdə bu mürəkkəb rolda çıxış edərək, böyük bədii əhəmiyyətə malik obraz yaratmışdır. Onu da qeyd edək ki, «Koroğlu» operası müxtəlif səhnələrdə, fərqli dillərdə tamaşaya qoyulmuşdur: opera Azərbaycan, rus, erməni, türkmən, özbək dillərində Moskvada (1939, 1959), Təbrizdə (1941), Aşqabadda (1939), İrəvanda (1942), Daşkənddə (1950) oynanılmış, tamaşaçıların böyük rəğbətini qazanmışdır. Əsər 1940-cı ildə dövlət mükafatına layiq görülmüşdür.

1937-ci ildə Moskvada Bülbülün təşəbbüsü ilə Ümumittifaq vokal konfransı keçirilmiş, burada o, ölkənin bütün musiqi ictimaiyyətinin böyük marağına səbəb olmuş, geniş məruzə ilə çıxış etmişdir. Bülbül 1938-ci ildə SSRİ Xalq Artisti adına layiq görülmüşdür.

Bülbül aşıq yaradıcılığına dair şifahi materialların - xalq nağılları, əfsanə, dastan, qəzəllərin, aşıq musiqi yaradıcılığının 250 çap vərəqi həcmində toplanması üçün briqadaların təşkil edilməsinin təşkilatçısıdır. Bülbül 1938-1961-ci illərdə keçirilmiş aşıqlar qurultaylarının təşəbbüskarıdır. Həmçinin, bu qurultaylarda məruzəçi və onların keçirilməsi layihələrinin müəllifidir. Bülbül Azərbaycanda not nəşriyyatının təşkilatçısıdır. Bülbül parlaq istedadların üzə çıxarılması üçün ilk musiqi olimpiadasının keçirilməsinin təşəbbüskarıdır.

1957-ci ildə keçirilən VI Ümumittifaq Moskva Festivalında Şərq xalqlarının klassik oxuma müsabiqəsinin münsiflər heyətinə sədrlik etmişdir.

1961-ci ilin iyul ayında Şuşa şəhərində, keçmiş Şuşa real məktəbin zalında konsert vermişdir. Bu konsert Bülbülün Şuşadakı son konserti olmuşdur.

Bülbül 26 sentyabr 1961-ci ildə Bakı şəhərində vəfat etmişdir. Məzarı Birinci Fəxri Xiyabandadır.

Xatirəsinin əbədiləşdirilməsi

Müğənninin vətənində - Şuşada Bülbülün bürünc büstü quraşdırılmışdır. 1992-ci ildə Şuşanın işğalından sonra büst (Natəvan və Üzeyir Hacıbəyovun büstləri ilə birlikdə) Gürcüstan ərazisinə çıxarılmış və sonralar Azərbaycan hakimiyyəti tərəfindən alınmışdır. Uzun illər büst Bakıda İncəsənət Muzeyində saxlanılmışdır. Şuşa 2020-ci ildə azad olunduqdan sonra Prezident İlham Əliyev Şuşaya ilk səfəri zamanı yenidən büstün açılışını etmişdir.

1976-cı ildən Bakıda Bülbülün xatirə ev-muzeyi fəaliyyət göstərir. Həmçinin, Şuşa şəhərində 1992-ci ilə qədər yerləşən ev-muzeyi onun Bakı şəhərindəki memorial muzeyinin filialı idi.

Hazırda Bakı şəhərində mərkəzi küçələrdən biri Bülbülün adını daşıyır, onun adına Azərbaycan Dövlət Konservatoriyasının nəzdində musiqi məktəbi fəaliyyət göstərir. Azərbaycan Dövlət Opera və Balet Teatrının foyesində, Bülbül adına Orta İxtisas Musiqi Məktəbində büstlər quraşdırılıb. 1992-ci ildən Sumqayıt Uşaq İncəsənət Məktəbi Bülbülün adını daşıyır. Hər iki ildən bir Bakıda Bülbül adına vokalistlərin Beynəlxalq müsabiqəsi keçirilir.

1998-ci ildə Bülbülün 100 illiyi ilə əlaqədar olaraq, Azərbaycan poçt markası və 2008-ci ildə 110 illik yubileyi münasibətilə xatirə sikkəsi buraxılıb.

2012-ci ildə Bülbülün yaşadığı evin yaxınlığında, Bülbül prospektində tuncdan hazırlanan abidə ucaldılmışdır. Abidənin müəllifi heykəltəraş Akif Əsgərovdur.

AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT SIĞORTA ŞİRKƏTİ

AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT SIĞORTA ŞİRKƏTİ

"Azərsığorta" şirkəti yanvar-fevral aylarında ödəniş alan vətəndaşların sayını – AÇIQLADI

Bakı.14.03.2022. Azərbaycan sığorta bazarının ən iri şirkətlərindən olan "Azərsığorta" Dövlət Sığorta Şirkəti cari ilin yanvar-fevral ayları üzrə sığorta ödənişi alan vətəndaşların sayını açıqlayıb.

Şirkətdən verilən məlumata görə, "Azərsığorta" tərəfindən cari ilin ilk iki ayında müxtəlif sığorta hadisələri üzrə vətəndaşlara ödənilən vəsaitlərin həcmi ümumilikdə **3,720 mln. manat** təşkil edib.

Qeyd olunan hesabat dövründə "Azərsığorta" Dövlət Sığorta Şirkətindən ödəniş alan vətəndaşların sayı isə **3080-ə** çatıb. Ödənişlər müvafiq qanunvericiliyin tələbinə uyğun olaraq vaxtında və operativ qaydada həyata keçirilmişdir.

Xatırladaq ki, "Azərsığorta" Dövlət Sığorta Şirkəti müştərilərinə qanunvericiliklə nəzərdə tutulmuş könüllü və icbari sığorta növləri üzrə xidmətlər təklif edir.

Ətraflı məlumat üçün Marketinq və İctimaiyyətlə Əlaqələr şöbəsinə müraciət edə bilərsiniz

Ünvan: C.Məmmədquluzadə 102A

Tel: (99412) 310 22 70, Call Center: * 1200

www.azersigorta.az

TuranBank

...Bizimlə etibarlıdır

Azərbaycan xalqını bahar müjdəli

NOVRUZ BAYRAMI

münasibətilə səmimi qəlbdən təbrik edir,

bayram ovqatı və sevinc arzu edirik.

Azercell Eksklüziv tezliklə Şuşada!

Lider mobil operator Azərbaycanın mədəniyyət paytaxtında ofisinin açılışına hazırlaşır.

Azərbaycanın qüruru sayılan Şuşada həyat yenidən qurulur. Hər sahə üzrə aparılan bərpa işləri şəhərin canlanmasına səbəb olur. Şanlı ordumuzun ardınca Şuşaya daxil olan və burada ilk mobil şəbəkəni quran "Azercell Telekom" MMC mədəniyyət paytaxtında öz ilk Eksklüziv ofisini açmağa hazırlaşır.

Ölkənin lider mobil operatoru Şuşaya səfər edən və orada çalışan abunəçilərə operativ şəkildə xidmət göstərilməsi üçün şəhərin Aslan Qaraşərov küçəsi, 2 ünvanında ofisin açılışı ilə bağlı hazırlıq işlərini artıq tamamlamaq üzrədir. Eksklüziv tipli mağazaların özəlliyi ofisdə açıq sahələrin mövcudluğu, rahat xidmət göstərilməsi və seçim imkanlarının olmasındadır.

Azercell "Bağlantını asanlaşdırır, həyatı daha dolğun edirik!" strateji məqsədinə uyğun olaraq, işğaldan azad olunmuş ərazilərimizin sürətli inkişafına öz töhfəsini verməyə çalışır və Qarabağda mobil şəbəkə infrastrukturunun qurulmasını intensiv şəkildə davam etdirir. Şirkət bu ərazilərdə 2G/3G/4G radio baza stansiyaları quraşdırmaqla Şuşa, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcər rayonları, İstisu, Hadrut, Suqovuşanın qəsəbələri, Xocavənd və Laçın rayonlarına aid bir çox kənd və digər əraziləri artıq yüksək keyfiyyətli mobil xidmətlərlə təmin edib.

Xatırladaq ki, məhz Azercell işğaldan azad olunmuş ərazilərdə ilk mobil infrastrukturunu və dördüncü nəsil LTE radio baza stansiyalarını qurub. Bundan əlavə, Qarabağda müştərilərinə canlı xidmət göstərən ilk mobil operator da məhz Azercell olub. Hələ ötən ilin sentyabrında Azercell Mobil Müştəri Xidmətləri Şuşa şəhərinə səfər edərək, orada 200-ə yaxın abunəçiyə xidmət göstərib. Azercell komandası Yuxarı Gövhər Ağa Məscidi, Şuşa şəhər İcra Hakimiyyətinin yaxınlığında yerləşən böyük meydanda 50-dən çox müxtəlif müştəri əməliyyatını həyata keçirib.

Azercell Qarabağda yeni nəsil şəbəkəsinin əhatə dairəsinin genişləndirilməsi və bu ərazilərə qayıdacaq əhalini yüksək keyfiyyətli kommunikasiya xidmətləri və innovativ həllərlə təmin edilməsi üçün genişmiqyaslı işlərini davam etdirir.

ALLAH RƏHMƏT ELƏSİN

Professor Elşən Hacızadə Azərbaycan Dövlət İqtisad Universitetinin prorektoru Şaiq Əsgərova qardaşı

ELMAN ƏSGƏROVUN

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Akif Musayev, Vahid Novruzov, Ədalət Muradov, Qüdrət Kərimov, Elşən Hacızadə, Süleyman Qasımov, Mirqasım Vahabov, Bəyalı Ataşov, Məiş Əhmədov, Aydın Hüseynov, Rəsul Balayev, Müşfiq Atakişiyev, Zahid Məmmədov, Aytən Səmədzadə, Elşad Səmədzadə

Dizayner:
Lamiyə NƏBİYEVA

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500